AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

12 MAY 2018-ci il ŞƏNBƏ № 105 (6138) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## E.İ.Əfəndiyevin “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında müasir ədəbiyyatşünaslığın və ədəbi tənqidin inkişafı sahəsində səmərəli fəaliyyətinə görə Elçin İlyas oğlu Əfəndiyev “Şöhrət” ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 may 2018-ci il.**

## F.Ş.Əliyevanın Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Fərəh Şirməmməd qızı Əliyeva Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 may 2018-ci il.**

## R.Ç.Nəcəfin Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İnnovativ inkişaf və elektron hökumət məsələləri şöbəsinin müdiri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Rövşən Çingiz oğlu Nəcəf Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İnnovativ inkişaf və elektron hökumət məsələləri şöbəsinin müdiri təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 may 2018-ci il.**

## H.Ş.Sadıqova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və “Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasında təhsil sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Həsən Şiralı oğlu Sadıqova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 may 2018-ci il.**

# Prezident İlham Əliyev Bakıda “Dinamo” otelinin açılışında iştirak edib



**Mayın 11-də Bakının Səbail rayonunda “Dinamo” otelinin açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Otelin baş meneceri Alberto Matos və dizayneri Linda Pinto burada aparılan əsaslı təmir-yenidənqurma işləri barədə Prezident İlham Əliyevə məlumat verdilər.

Dövlətimizin başçısı və xanımı otelin rəmzi açılışını bildirən lenti kəsdilər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oteldə yaradılan şəraitlə tanış oldular.

Nəfis tərtibatla qurulan otelin interyeri müasirliyi ilə diqqəti cəlb edir. Burada aparılan yenidənqurma işləri nəticəsində qonaqların qalması, yüksək səviyyədə istirahət etməsi, vaxtlarını səmərəli keçirməsi üçün maksimum imkanlar yaradılıb. İdmançıların və atletlərin arenası olan bu məkan öz yeni konsepti ilə dinamik və müasir həyat tərzi axtaranlar üçün ideal bir məkandır. Otelin restoranlarının nadir bədii konsepti də diqqət çəkir. Restoranlarda otelin qonaqlarının və müştərilərin zövqünə uyğun xidmət göstərmək üçün hərtərəfli şərait var. Burada qonaqlara milli və dünya mətbəxinin nəfis təamları təqdim ediləcək.



Mehmanxananın idman zalında müasir qurğular quraşdırılıb, qonaqların və atletlərin idmanla məşğul olmaları üçün geniş imkanlar yaradılıb. Bundan başqa, oteldə üzgüçülük hovuzu, SPA da qonaqların ixtiyarına veriləcək.

Ümumi sahəsi 7500 kvadratmetrə yaxın olan otelin paytaxtın əsas işgüzar və mədəni mərkəzlərinə yaxın olması qonaqlara vaxtlarını daha səmərəli keçirmək üçün hərtərəfli imkanlar yaradır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində bütün sahələrdə olduğu kimi turizm sektorunun əsas xidmət istiqamətlərindən olan müasir otel sisteminin yaradılması baxımından son illərdə çox mühüm işlər görülüb. “Dinamo” otelində müxtəlif kateqoriyalara uyğun 28 otaq var. Otaqların interyeri tərtib edilərkən qonaqların zövqünü oxşaması və rahatlıq əsas meyar kimi seçilib.

Otellə tanışlıqdan sonra Azərbaycan Prezidenti kollektivlə görüşdü.

**Görüşdə çıxış edən Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:**

-Mən sizi Bakıda yeni otelin açılışı münasibətilə təbrik edirəm, çox gözəl hadisədir. Dinamo oteli çox gözəl səviyyədə tikilib istifadəyə verilir. Bildiyiniz kimi, bu otel tarixi binada yerləşir. Bu binanın böyük tarixi var və çox şadam ki, binanın tarixi memarlığı tam qorunub saxlanılıb və daxili dizaynı da göz oxşayır. Burada istirahət edən qonaqlar özlərini evlərindəki kimi hiss edəcəklər. Çox gözəl dizayn işləri görülüb. Xanım Pintoya xüsusi minnətdarlığımı bildirirəm ki, doğrudan da dizayn göz oxşayır. Burada bütün işlər çox müasir və yüksək səviyyədə görülübdür. Otelin yerləşməsi də çox əlverişlidir, şəhərin mərkəzidir. Burada qalan qonaqlar şəhərin ən baxımlı yerlərinə piyada rahat gedib çata bilərlər. Turistlər buradan həm bulvara, həm İçərişəhərə, şəhərimizin mərkəzi yerlərinə çox rahat gedib çıxa bilərlər.



Əlbəttə, bu otelin fəaliyyəti ölkəmizdə turizmin inkişafına təkan verəcək. Çünki bu, indi bizim üçün əsas istiqamətlərdən biridir, turistlərin sayı ölkəmizdə artır. Turistlərin sayı 2016-cı ildə 22 faiz, 2017-ci ildə isə 20 faiz artıb. Bu ilin dörd ayında isə Azərbaycana gələn turistlərin sayı 13 faiz artıbdır. İndi “ASAN Viza” rejimindən istifadə edərək 90-dan çox ölkədən turistlər gələ bilərlər. Bizim 7 aeroportumuz var, gözəl infrastruktur layihələri icra edilir. Bu yaxınlarda turizm üzrə Dövlət Agentliyi yaradılıb. Əlbəttə, bu Agentlik turizmin inkişafına təkan verəcək və Azərbaycanda müasir turizm sənayesi yaradılacaqdır.

**(davamı 2-ci səhifədə)**

# Prezident İlham Əliyev Bakıda “Dinamo” otelinin açılışında iştirak edib

**(əvvəli 1-ci səhifədə)**

Eyni zamanda, bu otelin fəaliyyətə başlaması ölkəmizin ümumi inkişafını göstərir. Şəhərimizin gözəlliyi bu gün artıq dünya birliyi tərəfindən tanınır. Ölkəmizdə keçirilmiş böyük tədbirlər, idman tədbirləri, onların arasında əlbəttə ki, Formula 1 yarışı dünyanın diqqətini Azərbaycana cəlb edir. Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biri kimi öz qapılarını dostlarının üzünə açır.

**Sonra çıxışını ingilis dilində davam etdirən Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:**

- Mən həqiqətən də çox şadam ki, biz bu gün şəhərimizin tarixi binasında yerləşən “Dinamo” otelinin rəsmi açılış mərasimində iştirak edirik. Çox şadam ki, binanın memarlıq üslubu tamamilə qorunub saxlanılmışdır. Bu binanın böyük tarixi var. Çox sevindirici haldır ki, biz bu binanı inşa olunduğu üslubda qoruyub









saxlaya bilmişik. Bunun vacibliyini xüsusilə qeyd etmək istəyirəm. Çünki bilirəm ki, bu binanın sökülməsi və onun yerinə yeni göydələnin tikintisi planları var idi. Lakin mən bu barədə məlumat alan kimi, əlbəttə, bu planların qarşısını aldım. Çünki biz tariximizi, memarlığımızı qorumalıyıq və Bakı şəhərinin memarlığının inkişafını qorumalıyıq.

Əlbəttə, şəhər genişlənməlidir, inkişaf etməlidir, hündürmərtəbəli binalar, göydələnlər də olmalıdır. Lakin, eyni zamanda, tarixi keçmişimiz və müasir tələblərimiz arasında harmoniya da olmalıdır. Hesab edirəm ki, Bakı bu iki vacib elementi özündə birləşdirən dünyanın azsaylı şəhərlərindən biridir. Biz tariximizi, qədim tariximizi qoruyuruq və eyni zamanda, Bakıda inşa olunmuş müasir binalar şəhərin ümumi görünüşü ilə ziddiyyət təşkil etmir. Buna görə də Bakı öz qonaqları və şəhərin sakinləri üçün xoş və rahat nadir ab-havanı qoruyub saxlayır.

Əlbəttə, “Dinamo” otelinin açılışı əlamətdar hadisədir. Çünki biz burada xanım Pintonun rəhbərlik etdiyi qrupun, dünyaca məşhur şirkətin sənət əsərini görürük. Biz sizin verdiyiniz töhfəni yüksək qiymətləndiririk. Əlbəttə ki, sizin adınız qonaqları mütləq buraya cəlb edəcək. Otelin müxtəlif yerlərinə baxarkən biz bir daha görürük ki, sizin şirkətin belə yüksək beynəlxalq standarta malik olması təsadüfi deyil. Buna görə minnətdarlığımı bildirirəm. Əminəm ki, oteldə qalanlar, nahar yeməyi üçün buraya gələnlər və ya yaxşı vaxt keçirmək istəyənlər özlərini həqiqətən də çox xüsusi bir mühitdə hiss edəcəklər.



Şəhər sürətlə inkişaf edir. Hesab edirəm ki, bu gün Bakı dünyanın ən gözəl şəhərlərindən biridir və biz irsimizi qorumalıyıq, burada yaşayan insanlar və qonaqlarımız üçün daha da yaxşı şərait qurmalıyıq.

Sizə uğurlar arzulayıram. Şadam ki, “Dinamo” adı və keçmişin rəmzləri qalıb. Bu, bir daha onu nümayiş etdirir ki, biz tariximizin bütün dövrlərinə hörmətlə yanaşırıq. Bu, bizi daha güclü edir və bu, həqiqətdir.



Bir daha sizi təbrik edirəm. Azərbaycanı regionumuzun ən cəlbedici turizm məkanlarından birinə çevirməyə kömək etmək işinizdə burada sizə çox məhsuldar fəaliyyət arzu edirəm. Çox sağ olun.

* * *

Bakıda yeni müasir otellərin, mehmanxana komplekslərinin istifadəyə verilməsi paytaxtımızın turizm potensialını tam nümayiş etdirməyə şərait yaradır. Bununla yanaşı, bu tədbirlər ölkəmizdə mühüm sosial infrastruktur layihələrinin icrasının davamlı olduğunu və müxtəlif sahələri əhatə etdiyini göstərir. Bu cür layihələrin uğurla həyata keçirilməsi sübut edir ki, Azərbaycanda başlanılan bütün işlər vaxtında və keyfiyyətlə yerinə yetirilir.

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**

## F.Ş.Əliyevanın Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Fərəh Şirməmməd qızı Əliyeva Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin rektoru vəzifəsindən azad edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*2.1.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*2.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 may 2018-ci il.**

## Mehdiabad-Pirşağı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** İyirmi bir min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Mehdiabad-Pirşağı avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 3,3 milyon (üç milyon üç yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 may 2018-ci il.**

## Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası olub

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin V hissəsinə və “Konstitusiya Məhkəməsi haqqında” Qanunun 7.1-ci maddəsinə əsasən, vətəndaş Raqif Həbibovun məhkəmə aktlarından verdiyi şikayətə baxılaraq, Konstitusiya Məhkəməsi Plenumunun icraatına qəbul olunması haqqında qərardad çıxarılıb.

Şikayətə mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun iyunun 20-nə təyin edilmiş iclasında baxılacaq.

**AZƏRTAC**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Peru Hökuməti və xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Ali dövləti fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar diləyir, Peru ilə Azərbaycan arasında siyasi, diplomatik, iqtisadi, ticari əlaqələrin, dostluq və əməkdaşlıq münasibətlərinin daha da möhkəmlənməsini arzu edirəm.

Zati-aliləri, Sizə bir daha dərin hörmət və ehtiramımı bildirirəm.

*Hörmətlə,*

**Martin Vizkarra Kornexo**
**Peru Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Çox hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Alman-Azərbaycan Forumunun idarə heyəti adından ürəkdən təbrik edirəm.

Azərbaycan və Almaniya ötən illər ərzində siyasi, iqtisadi, elmi və mədəni sahələrdə bir çox cəhətdən bir-birinə yaxınlaşıblar. Alman-Azərbaycan Forumu təşkil etdiyi çoxsaylı konfranslar, nümayəndə heyətlərinin səfərləri və müzakirə platformaları vasitəsilə iki ölkə arasındakı münasibətlərin inkişafına səy göstərib və Azərbaycanın daha yaxşı tanıdılmasına öz töhfəsini verib.

Mən gələcəkdə də Sizin dəstəyinizə ümid edirəm. Ali dövləti fəaliyyətinizdə Sizə yeni uğurlar və xoşbəxtlik diləyirəm.

*Hörmətlə,*

**Hans-Eberhard Şlayer**
**Alman-Azərbaycan Forumunun idarə heyətinin sədri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, hörmətli cənab Prezident Əliyev.

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. 2017-ci ilin mart ayında Parisdə baş tutan açıq müzakirəmizə görə Sizə bir daha təşəkkürümü bildirirəm.

Məmnunluq hissi ilə qeyd edirəm ki, Azərbaycan “Airbus” şirkəti ilə əməkdaşlıqda müsbət mövqedədir. “Azərsky” peyki Azərbaycanın iqtisadiyyatı və suverenliyi üçün Yer səthinin məsafədən müşahidə imkanlarının inkişafı istiqamətində ilk uğurlu addımdır. Kosmos sahəsində strateji danışıqlarımızı davam etdirmək məqsədilə məmnuniyyətlə Bakıya səfər etməyimə şad olardım.

*Hörmətlə,*

**Nikola Şamüsi**
**“Space Systems” (Kosmos sistemləri) bölməsinin icraçı vitse-prezidenti**
**Fransanın “Airbus” müdafiə və kosmik şirkətinin prezidenti**

# Müstəqil Azərbaycanın əbədiyaşar lideri

**Ölkəmizdə 2018-ci il əlamətdar tarixi hadisələrlə zəngindir. Bu il müstəqil Azərbaycanın memarı, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 və hakimiyyətə ikinci dəfə gəlməsinin 25 illiyini qeyd edirik. Həmçinin, 2018-ci il Şərqdə ilk müstəqil, demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin, Parlamentin, Milli Ordunun, prokurorluq, ədliyyə və polis orqanlarının yaranmasının, qadınlara seçki hüququnun verilməsinin də 100 illiyidir. O dövrdə bu müstəqil dövlət 23 aydan sonra, heç iki ilə çatmadan süquta uğradı.**



Bu zaman Azərbaycanın görkəmli siyasətçisi, həyatı ilə tarix yazan Ulu öndər Heydər Əliyevin bir fikri yada düşür: “Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir”. Həyat davam etdikcə bu müdrik kəlam hər zaman öz təsdiqini bir daha tapır.

Ulu öndər tarixi keçmişimizə xüsusi önəm verərək demişdir: “Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsi yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır.”

Müstəqilliyimizi ikinci dəfə, demək olar ki, 27 il əvvəl bərpa etsək də, ilk illərdə səriştəsiz, təcrübəsiz rəhbərlik, siyasi böhran, hərc-mərclik, anarxiya mühiti xalqımızı öz arzusuna çatdıra bilmədi. Bir daha xalqımızın canı-qanı bahasına əldə etdiyi dövlətçiliyinin itirilməsi təhlükəsi yaranmışdı.

Sözün əsl mənasında, sabit, möhkəm Azərbaycan dövlətini və xalqımızı davamlı və müstəqil inkişaf yoluna çıxarmağa 1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə qayıdan ümummilli liderimiz Heydər Əliyev nail oldu. Məhz elə bu səbəbdən də, 15 iyun tarixi ölkəmizdə Milli Qurtuluş Günü kimi qəbul olunub və bu il həmin tarixi qayıdışın 25 illiyi qeyd edilir.

Ulu öndərin tərcümeyi-halında göstərilir ki, gənc yaşlarında ixtisas seçərkən onun memar olmaq arzusu var idi, lakin o, memar olmadı. Onun keçdiyi həyat yolu bu fikirlə razılaşmamağa əsas verir. Həqiqətən, o, müstəqil Azərbaycan dövlətinin memarı oldu. Bu dövlətin həm bünövrəsini qoydu, həm də tarixin çətinliklərinə tab gətirən, möhkəm təməllər üzərində davamlı binasını qurdu.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev zəmanəsinin fenomeni olaraq xalqı və dövləti qarşısında misilsiz xidmətlərinin, qaynar fəaliyyətinin şahidi və iştirakçısı olmuşuq.

Zəngin idarəçilik təcrübəsinə malik siyasi lider kimi o, insanları həm bəşəri məqsəd və dəyərlər, həm də milli maraqlar, prioritetlər ətrafında birləşdirə bildi. Dövlət başçısı olaraq, bu məqsədlərə çatmağa doğru, xalqla birgə irəlilədi, xalqın böyük etibarını və dəstəyini qazandı.

Heydər Əliyev uzaqgörən siyasi kursunu həyata keçirərək Azərbaycan xalqı öz müstəqilliyini, suverenliyini möhkəmlətdi, ictimai-siyasi sabitlik, qanunun aliliyi, insan hüquqlarının qorunması sahəsində dönməz uğurlar əldə etdi, beynəlxalq aləmdə müstəqil tərəf müqabili kimi Azərbaycanın nüfuzunu qaldırdı.

Azərbaycan Respublikasının inkişafının əsas vəzifələrini müəyyən edərək, o demişdir: “Müstəqil Azərbaycanda demokratik hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən bəhrələnmək, ümumbəşəri dəyərlərdən istifadə edərək, demokratik dövlət quruculuğu yolu ilə getməlidir.”

Bu məqsədlərə çatmaq üçün Heydər Əliyev Azərbaycanın milli inkişaf siyasətinin, gələcək ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi inkişafının əsaslarını qoymaqla, daxili və xarici siyasətin məqsəd və vəzifələrini, prinsip və xüsusiyyətlərini, əsas istiqamətləri və prioritetləri müəyyən etdi.

Heydər Əliyevi fenomenal bir dövlət xadimi kimi dünyaya tanıdan onun zəkası, müdrikliyi, geniş intellekti, uzaqgörənliyi və cəsarəti olmuşdur. O, dahi bir şəxs olaraq, öz şəxsiyyətində çoxşaxəli istedadları, dövlət xadimi, siyasi xadim, həm də alim təfəkkürlü insan olmaqla uğurlu islahatçı kimi bütün dünyada tanınmışdır.

İstər siyasi, iqtisadi, istərsə də sosial baxımdan elə bir sahə tapılmaz ki, onun inkişafının özülündə Heydər Əliyevin köklü islahatlara yönəlmiş ideyaları durmasın. Bu islahatlar nəticəsində müstəqil Azərbaycan dövlətinin siyasi, iqtisadi, sosial sahələrində, sənaye, kənd təsərrüfatı və digər bütün sahələrdə dönüş yaranmış, keyfiyyətcə tam yeni və yüksək səviyyəyə qaldırılmış, bütövlükdə iqtisadiyyatın inkişafında sıçrayış, sosial problemlərin həlli üçün münbit şərait yaranmış və ictimai-siyasi baxımdan sabitliyi və davamlı inkişafı səciyyələndirilmişdir. Bu inkişafın mərkəzində insan amili, əhalinin yaşayış səviyyəsinin, rifahının yüksəlməsi və tərəqqisi durur.

Belə həyati əhəmiyyətli, cəsarətli layihələrdən biri də 1994-cü ildə onun təşəbbüsü ilə imzalanmış, “Əsrin müqaviləsi” adını almış Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin çəkilməsi olmuşdur. 1999-cu ildə İstanbul Sammitində Heydər Əliyev öz çıxışında məhz bu marşrutun seçilməsini bəyan etdi. O vaxt Türkiyənin prezidenti Süleyman Dəmirəl Sammitdə belə söylədi: “Bu qərarı ilə Heydər Əliyev yalnız Türkiyəni deyil, bütün türk dünyasını şərəfləndirdi.” Bu qərardan sonra bütün şəhər səhərə kimi küçələrdə şənlik edir, fişənglər atılır, bayraqlarla bəzənilmiş maşınlarda insanlar küçələrdə sevinclərini bölüşürdülər. Ulu öndər Əsrin kontraktı olan neft müqaviləsinə imza atmaqla Böyük İpək Yolunun bərpasını və ölkəmizin inkişafını təmin edərək dünyanın diqqətini Azərbaycana yönəltdiyinə nail oldu.

Heydər Əliyev ən ağrılı problemimiz olan erməni təcavüzü, işğal olunmuş ərazilərlə bağlı həqiqətləri, qaçqın və məcburi köçkünlərin kütləvi və kobud şəkildə insan hüquqlarının pozulması, onların düşdüyü acınacaqlı vəziyyəti, ölkəmizdə bununla bağlı yaranmış problemləri, bir sözlə Azərbaycan həqiqətləri haqqında ən yüksək tribunalardan beynəlxalq ictimaiyyətə düzgün və qərəzsiz məlumatların çatdırılması istiqamətində görülən işləri sürətləndirdi. O, dövlət başçıları, tanınmış mütəxəssislərlə və diplomatik korpusla, səfirlərlə görüşləri zamanı, mötəbər beynəlxalq tədbirlərdə, BMT-nin Baş Assambleyasında bu məsələləri xəritə üzərində təfərrüatı ilə izah etməklə ölkəmiz ətrafında yaradılmış saxta və yalan informasiya blokadasını aradan qaldırdı.

1994-cü ildən Heydər Əliyevin təşəbbüsü ilə atəşkəs rejimi elan olunsa da, ermənilər tərəfindən buna əməl edilmir. Son zamanlar, cəbhə bölgəsində baş verən hadisələr, təxribatlar, xüsusilə də mülki əhaliyə qarşı silahlı hücumlar ermənilərin təcavüzkar və sülhün əleyhinə yönələn siyasət yürütdüklərini bir daha sübut edir.

Heydər Əliyevin tövsiyəsi nəzərə alınmaqla, “Əsrin müqaviləsi”nin icrasından, Azərbaycan neftinin xarici ölkələrə ixracından əldə olunan gəlirlər ilk olaraq məcburi köçkün soydaşlarımızın problemlərinə, çadır düşərgələrinin ləğv edilərək onların bütün infrastrukturla təmin olunmuş yeni qəsəbələrə və mənzillərə köçürülməsinə sərf edilmişdir. Prezident İlham Əliyevin göstərişi və rəhbərliyi ilə davam etdirilən bu əhatəli tədbirlər nəticəsində 2007-ci ildə ölkədə bütün məcburi köçkün çadır düşərgələri ləğv edilmişdir.

Yeri gəlmişkən, 2016-cı ilin aprel hadisələrində qələbə qazanmağımızın özülündə ən əvvəl bünövrəsi ümummilli liderimiz tərəfindən, özünəməxsus uzaqgörənliyi ilə qoyulmuş ölkəmizin güclü iqtisadi inkişafı, ilk dəfə olaraq, hərbi sənayesinin yaradılması və qısa müddətdə əldə edilmiş nailiyyətləri, müasir hərbi texnika, sursat və avadanlıq istehsal etməklə ölkənin hərbi potensialının gücləndirilməsi, nizamlı, NATO standartlarına uyğun ordunun qurulması, bu texnikadan məharətlə istifadə etməyi bacaran yüksək peşəkarlığa malik, ölkə Prezidentinə, xalqına sadiq hərbi kadrların yetişdirilməsi, ən başlıca faktor isə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin bu amilləri böyük əzmlə ardıcıl, davamlı inkişaf etdirdiyi, orduya bir mərkəzdən vahid rəhbərliyi idi ki, bunlar da qələbəni şərtləndirdi.

Heydər Əliyev zamanın fövqündə duran lider kimi, cəmiyyətin və dövlətin inkişafının məhz demokratiya və insan hüquqlarına ehtiram göstərilməsi ilə bağlı olduğuna diqqəti yönəldərək, insan hüquqlarının müasir dünyada cəmiyyəti birləşdirən əsas meyar olduğunu vurğulayırdı.

Əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərlərə üstünlük verən Heydər Əliyevin rəhbərliyi ilə insan hüquq və azadlıqlarının təmin olunması məqsədilə bir sıra hüquqi islahatların həyata keçirilməsinə başlanılmışdır. İnsan hüquqlarının müdafiəsi sahəsində məhz onun tərəfindən bünövrəsi qoyulmuş köklü islahatlar və mütərəqqi tədbirlər nəticəsində respublikamızda qısa müddətdə böyük nailiyyətlər qazanılmışdır.

1993-cü ildən respublikamızda ölüm cəzasının tətbiqi üzərində veto qoyuldu və Azərbaycan Respublikasının 10 fevral 1998-ci il tarixli müvafiq Qanunu ilə ölüm cəzası ləğv olunaraq, ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəz edildi. Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğv olunması dünyada böyük əks-səda doğurdu. Heydər Əliyevin bu humanist və cəsarətli addımı respublikamızın Avropa hüquq məkanına inteqrasiyasına təkan verdi. Bəzi ölkələrdə hələ indiyədək belə qərar qəbul edə bilməyiblər.

Müstəqil Azərbaycan Respublikasında demokratiyanın atributu olan, vətəndaş cəmiyyətinin bərqərar edilməsini, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət quruculuğunu, insanların layiqli həyat səviyyəsini şərtləndirən ilk milli Konstitusiyaya ehtiyac duyulurdu.

1994-cü ilin iyul ayında Milli Məclisin iclasında ümummilli lider Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının yeni Konstitusiyasını hazırlamaq üçün Komissiya təşkil olundu. Heydər Əliyev dəfələrlə layihənin açıq, ictimai müzakirələrində, həm də Komissiyanın iclaslarında iştirak etdi. Ölkəmizin yeni Konstitusiyasının yaradılmasında həm tarixi, həm də ümumbəşəri dəyərlərdən, demokratik dövlətlərinin təcrübəsindən istifadə edilməsi mühüm vəzifə kimi qarşıya qoyulmuşdu. Əsas Qanunda dövlət quruculuğu sahəsində dünya təcrübəsi ümumiləşdirilməli və bu təcrübədən səmərəli istifadə edilməli, ölkəmizin prioritetlərinə uyğunlaşdırılmalı idi.

Konstitusiyanın layihəsinin müzakirələri zamanı ictimaiyyət tərəfindən 2400-dən çox təkliflər verilmiş, bunların bir çoxu qəbul olunmuşdur.

Nəhayət, xalqımız öz çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktında əks olunmuş prinsipləri əsas götürərək, cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalət, azadlıq və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında məsuliyyətini dərk edərək və suveren hüququndan istifadə edərək 12 noyabr 1995-ci il tarixdə öz milli Konstitusiyasını referendumla qəbul etdi. Konstitusiyanın III fəsli bütövlüklə insan hüquq və azadlıqlarının konstitusion təminatlarına həsr edilmişdir.

Ulu öndərin siyasətində ölkə əhalisinin milliyyətinə, etnik mənsubiyyətinə, dininə, dilinə, cinsinə, yaşına görə hər hansı bir ayrı-seçkiliyə yol vermədən, heç bir qrupu diqqətindən yayınmamışdır. Bu uzaqgörən siyasətin nəticəsidir ki, tarix boyu Azərbaycan ərazisində məkan salmış bütün millətlərin, dinlərin nümayəndələrinin sülh, mehribanlıq, qarşılıqlı anlaşma və əməkdaşlıq şəraitində yaşadığı Vətəni olmuşdur. Bu doğma mehriban münasibətlər millətlər arasında əlaqələrin daha da inkişaf etdirilməsinə təkan vermişdir. Odur ki, bu gün Azərbaycan dünyaya öz multikulturalizm siyasətinin özünə məxsus modelini nümunə kimi təqdim edir və örnək kimi qəbul olunur.

Heydər Əliyev tərəfindən dövlət idarəetmə sistemində aparılan islahatlar nəticəsində 2001-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, 2002-ci ildə isə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi (indiki Diasporla İş üzrə Dövlət Komitəsi) kimi yeni qurumlar yaradıldı.

Azərbaycan dilinin rəsmi dövlət statusu alması və latın qrafikasının tətbiqi, Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunması və inkişafı, azərbaycançılıq ideyalarının, milli dəyərlərinin bütün dünyada yaşayan həmvətənlərimiz arasında geniş yayılması, hər il 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilməsi və bu münasibətlə bütün xarici ölkələrdə yaşayan soydaşlarımızın iştirakı ilə təşkil edilən qurultaylar, toplantılar, xarici səfərlər zamanı Heydər Əliyevin onlarla keçirdiyi görüşlər 1993-cü ildən başlayaraq azərbaycançılıq ideologiyasının dövlət səviyyəsində həyata keçirilməsinin bariz nümunələridir.

Qeyd olunanlar bir daha sübut edir ki, Azərbaycan vətəndaşlarını vahid amal, ideya və məqsəd ətrafında birləşdirən milli ideologiyanın yaradılması və bu məsələnin dövlət siyasəti səviyyəsinə qaldırılması məhz Heydər Əliyevin adı ilə bağlıdır. O, əhalinin hər bir qrupunun hüquqlarının təmin olunması sahəsində müntəzəm fəaliyyət göstərmişdir.

Azərbaycan qadınlarının fəaliyyətinə də xüsusi diqqət yetirmişdir. 14 yanvar 1998-ci il tarixdə o, həm “Azərbaycanda qadınların rolunun artırılması haqqında” Sərəncam, Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında Fərman imzalamış, həm də, qadınların dövlət orqanlarında fəal iştirakını təmin etmək məqsədilə 2000-ci il martın 6-da “Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” Fərman vermişdir. Həmin siyasətin bu gün uğurla icrasının nəticəsidir ki, Qadın Problemləri üzrə Dövlət Komitəsinin əsasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmış, qadınlar hazırda rəhbər vəzifələrdə, parlamentdə, məhkəmə hakimiyyətində və yerli özünüidarəetmə orqanlarında çalışırlar.

Eyni zamanda, ümummilli lider Heydər Əliyevin gənclərlə bağlı siyasətinin, qəbul olunmuş dövlət proqramlarının, həyata keçirilmiş Forumların uğurlu nəticəsidir ki, artıq gənclərimiz elm, təhsil və idman sahəsi ilə yanaşı, dövlət idarəçilik sistemində yüksək vəzifələrdə təmsil olunmuşlar.

Təbiətən mərhəmətli, xeyirxah insan olan müdrik rəhbərimizin humanist addımları təkcə bu deyilənlərlə məhdudlaşmır. Ölkəmizdə ilk əfv fərmanı da ümummilli lider Heydər Əliyev tərəfindən hələ 1995-ci ildə imzalanmışdır. Həmin sənədlə Azərbaycan Respublikasında əfvetmə institutunun bərpa olunması Heydər Əliyevin müstəsna xidmətlərindəndir. Sonrakı illərdə silsilə əfv sərəncamları verilmiş, ümumilikdə, 1995-2003-cü illər ərzində ümummilli lider Heydər Əliyev 32 əfv sərəncamı imzalamışdır. Onun təşəbbüsü ilə 1996-cı ildən başlayaraq 7 amnistiya aktı qəbul edilmiş, həmin aktlar 77 mindən artıq şəxs barəsində tətbiq olunmuşdur. Nəticədə həbsdən azad edilmiş insanlar ailələrinə və cəmiyyətə qovuşmuşlar.

Heydər Əliyevin insanlığa, humanizmə yönəlmiş ideyaları zamanın sınağından çıxmış və bu gün də Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Artıq müstəqillik dövründə 11 amnistiya aktı qəbul olunmuş, 63 əfv sərəncamı imzalanmış və həyata keçirilmişdir. Bu müsbət təcrübə başqa ölkələr üçün örnək ola bilər.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva deputat olarkən onun təşəbbüsü ilə bu amnistiya aktlarından dördü qəbul olunmuş və sonuncusu 10 min məhkuma şamil edilmişdir.

Yeri gəlmişkən, hər ayın sonu məhkumların əfv olunması ilə bağlı təkliflərimizi müvafiq Komissiyaya təqdim edirik. Bu ilin əlamətdar tarixlərini nəzərə alaraq, ölkə Prezidenti cənab İlham Əliyevə əfv sərəncamının verilməsi ilə bağlı müraciətim göndərilmişdir. Ümumilikdə vəsatətlərim əsasında 566 məhkum, o cümlədən qadınlar, ahıllar, yeniyetmələr əfv edilərək azadlığa buraxılmış və ailələrinə qovuşmuşlar.

Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə hüquqi islahatların həyata keçirilməsi məqsədilə bir sıra tədbirlər görülmüş, respublikamız çoxsaylı beynəlxalq konvensiyalara qoşulmuş, müvafiq qanunvericilik aktları qəbul olunmuş, bu sənədlərin icrasını təmin etmək üçün institutlaşma, müvafiq dövlət qurumlarının yaradılması prosesi həyata keçirilmişdir.

Hələ 1998-ci ildə Prezident Heydər Əliyev ölkəmizdə insan hüquqları sahəsində ilk strateji dövlət sənədi olan “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” 22 fevral 1998-ci il tarixli Fərman imzalamış və həmin ilin 18 iyun tarixində “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” təsdiq etmişdir. “İnsan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkili təsisatının yaradılması” da ilk dəfə bu Dövlət Proqramında təsbit olunmuşdur.

2001-ci ilin yanvarın 25-də Azərbaycan Avropa Şurasına üzv seçildi, həmin ilin dekabrın 25-də “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Avropa Konvensiyası ratifikasiya edildi və bəzi ölkələrdə uzun illər davam etsə də, ölkəmizdə cəmi üç gün sonra, 2001-ci ilin dekabrın 28-də Milli Məclis tərəfindən Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında Konstitusiya statuslu Qanun qəbul olundu. 5 mart 2002-ci ildə isə ölkə Prezidenti həmin Qanunun tətbiq edilməsi haqqında Fərman imzaladı və beləliklə də təsisatın yaradılması və fəaliyyət göstərməsi üçün hüquqi və maddi bazası yaradıldı.

2002-ci il 24 avqust tarixində keçirilmiş referendumla ilk müstəqil Azərbaycan Respublikasının Konstitusiyasına bir sıra əlavə və dəyişikliklər edilmiş, eyni zamanda 95, 109 və 130-cu maddələrə İnsan Hüquqları üzrə Müvəkkilin seçilməsi və fəaliyyətinin əsasları ilə bağlı bəndlər daxil edilməklə praktiki olaraq Ombudsmanın Konstitusiya statuslu bir qurum olması ali hüquqi qüvvəyə malik olan əsas Qanunumuzda təsbit edildi.

Ombudsman haqqında Konstitusiya Qanununa uyğun olaraq Heydər Əliyevin təqdim etdiyi üç şəxsdən biri yeddi illik müddətə böyük səs çoxluğu ilə 2 iyul 2002-ci il tarixdə ölkənin ilk Ombudsmanı seçildi. Yeri gəlmişkən, 5 mart 2010-cu ildə ikinci dəfə həmin müddətə ölkə Prezidenti İlham Əliyevin təqdim etdiyi üç şəxsdən biri Ombudsman seçildi.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə ilk Müvəkkili olmaq mənə nəsib oldu. Bu vəzifəyə seçiləndə ümummilli lider Heydər Əliyev məni qəbul edərək heç vaxt unutmayacağım bir tövsiyəsini verdi. O, Ombudsman vəzifəsinin çox məsuliyyətli bir iş olduğunu, ölkəmizdə analoqu və ənənəsi olmadığını, fəaliyyətimi Ombudsman andına sadiq olaraq quracağıma inandığını bildirdi. Odur ki, Ombudsmanın qayəsi heç bir ayrı-seçkiliyə yol vermədən hər bir insanın bütün hüquqlarını müdafiə və təmin olunmasına xidmət edir. Məhz Heydər Əliyevin tapşırığına uyğun olaraq Azərbaycanda ilk müstəqil, qərəzsiz, ədalətli Ombudman təsisatı yarandı.

Beləliklə, ölkəmizdə Ombudsman təsisatının yaradılması Ulu öndər Heydər Əliyevin, bu təsisatın inkişafı isə möhtərəm Prezidentimiz İlham Əliyevin adı ilə bağlıdır.

Ölkəmizdə ilk dəfə yaranmış, məqsədləri insan hüquqları və azadlıqlarının məhkəmədənkənar müdafiəsi olan bu qurum qısa müddətdə insanların hüquqi maarifləndirməsinə, hüquq düşüncəsi və hüquq mədəniyyətinin, habelə dövlətimizdə demokratik idarəetməsinin daha da təkmilləşməsinə, sabitliyin, davamlı inkişafında yeni uğurlara zəmin yaratdı, habelə beynəlxalq ombudsmanlar qurumları arasında təşəbbüsləri, innovativ yanaşmaları ilə özünə layiqli yer tutdu.

Ümummilli liderimiz ölkəmizin demokratik inkişafı ilə bağlı qərarları bu gün də aktuallığını itirmir və inkişafın əsas istiqamətlərini, strateji hədəfləri müəyyən edir. Ulu öndərimiz demişdir: “Respublikada bütün demokratik prinsiplər, insan hüquqlarının müdafiəsi, siyasi plüralizm, söz azadlığı, sahibkarlıq azadlığı, vicdan azadlığı, dini etiqad azadlığı, milli mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların hüquqi bərabərliyi təmin edilsin!”. Azərbaycanda bu siyasət onun həm də siyasi varisi olan ölkə başçısı cənab İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilməkdədir.

Heydər Əliyev tərəfindən təsdiq edilmiş İnsan hüquqlarının müdafiəsinə dair ilk Dövlət Proqramının məntiqi davamı olaraq, ölkə başçısı İlham Əliyevin Sərəncamı ilə 2006-cı ildə İnsan hüquqlarının müdafiəsi üzrə ilk Milli Fəaliyyət Planı və 2011-ci ildə İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində ilk Milli Fəaliyyət Proqramı təsdiq edilmiş və bu sənədlərin icrasını əlaqələndirmək Ombudsmana tövsiyə edilmişdir. Bu üç strateji sənəd insan hüquqlarının sürətlə, sistematik və ardıcıl tərzdə inkişafı üçün yol xəritəsi olmuşdur.

Məhz elə bu səbəbdən də, ölkə başçısının təklifimizi də nəzərə alaraq 2007-ci il 18 iyun tarixli Sərəncamına əsasən, insan hüquqlarına dair ilk strateji sənədin qəbul edildiyi tarixdə yeganə ölkə olaraq respublikamızda, milli İnsan Hüquqları Günü kimi qeyd olunur. Yeri gəlmişkən, ölkəmizdə həm milli, həm də beynəlxalq İnsan hüquqları gününün qeyd olunması, bu əlamətdar tarixlər ərəfəsində insan hüquqlarının təmininin monitorinqi, vəziyyətin öyrənilməsi və ehtiyacların müəyyən edilməsi üçün imkan yaradır.

Bunlarla yanaşı, “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyasında, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərində insan hüquqlarının təmin olunmasında əməkdaşlığın mühüm vasitə kimi böyük əhəmiyyəti vardır.

Ötən dövrdə ölkə prioritetlərini rəhbər tutaraq və bu sənədlərə uyğun, hər bir kəsin hüquqlarının təmini üçün bərabər imkanların yaradılması məqsədilə təşəbbüsümüzlə bütün dövlət qurumları, yerli icra hakimiyyətləri, beynəlxalq təşkilatlar, özəl sektor, QHT, KİV və icmaları cəlb etməklə sıx əməkdaşlıqda fəaliyyət göstərilmiş, mühüm nəticələr əldə edilmişdir. Bu uğurlarda ölkəmizin 35 rayonunu əhatə etməklə insan hüquqlarının daha səmərəli təmin olunmasına xidmət edən, Gəncədə, Şəkidə, Cəlilabadda və Qubada yerləşən dörd Regional Mərkəzlərimizin müntəzəm fəaliyyətinin xüsusi rolu vardır.

Müvəkkil fəaliyyətində daim Konstitusiya Qanuna əsaslanaraq, ölkəmizin hər bir şəhər və rayonunda əhalinin hüquqi maarifləndirilməsinə yönəlmiş tədbirlər həyata keçirilir, insanları qəbul edir və onların müraciətlərinə həssaslıqla yanaşaraq, bəziləri elə yerindəcə həllini tapır ki, bu da Ombudsman təsisatına insanların etimadını daha da artırır.

Qeyd edilənlər bir daha sübut edir ki, ölkəmizdə insan hüquqları sahəsində təməl sənədlərin qəbul olunması, dövlət idarəçilik, habelə məhkəmə sisteminin təkmilləşdirilməsi, məhkəmədənkənar hüquq müdafiə mexanizminin yaradılması, Azərbaycanın dünya birliyinə və Avropaya inteqrasiyası məhz Ulu öndərin adı ilə bağlıdır.

Təsadüfi deyil ki, Heydər Əliyevin 95 illik yubileyi ərəfəsində onun zəngin irsinin, ictimai-siyasi fəaliyyətinin hərtərəfli öyrənilməsi və təbliği məqsədilə bütün bölgələrdə, idarə və müəssisələrdə, təhsil ocaqlarında yığıncaqlar, konfranslar, digər kütləvi tədbirlər keçirilir. O, bütün Azərbaycan xalqının məhəbbətini və ehtiramını qazanmışdır.

Ombudsman Aparatı və regional mərkəzləri, habelə ahıllar, qadınlar, gənclər və uşaqlar üçün Resurs Mərkəzləri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş silsilə tədbirlər paytaxtda və regionlarda həyata keçirmiş, ümummilli liderimizin əziz xatirəsi ehtiramla yad edilmiş və ölkəmizdə insan hüquqlarının bərqərar olunmasında və müdafiəsində xidmətləri barədə geniş söhbətlər açmışlar.

Həmçinin, Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinə gedərək, tam orta məktəbdə müəllim, şagird və valideynlərlə, həmçinin, ön xəttə xidmət edən əsgər və zabitlərlə də görüşmüş, Heydər Əliyevin dərin hörmət və ehtiramla anılmış, onun Azərbaycanın müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, ordu quruculuğu, xalqımızın firavanlığı və ölkənin ictimai-siyasi sabitliyi, qanunun aliliyinin təmini istiqamətində böyük xidmətlərini vurğulamışam.

Eyni zamanda, Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir və davam edəcəkdir. Bu siyasətin davam etdirilməsi nəticəsində ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda, insan hüquqları sahəsində islahatlar nəticəsində Azərbaycan bir çox göstəricilər üzrə sürətlə inkişaf edən öndər ölkəyə çevrilmişdir. 11 aprel 2018-ci ildə xalqımızın və müstəqil dövlətimizin həyatında tarixi hadisə kimi xüsusi əhəmiyyət kəsb edən, uğurla başa çatmış ədalətli, şəffaf seçkilər nəticəsində yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Əliyevin bu günlərdə Milli Məclisdə andiçmə mərasimində proqram xarakterli çıxışı, habelə bundan sonra onun sərəncamları və beynəlxalq fəaliyyəti olduqca böyük razılıqla, qürur və sevinc hissləri ilə qarşılanır.

Xalqımız inanır ki, Heydər Əliyevin ən böyük arzusu olan torpaqlarımızın işğaldan azad olunması Prezident İlham Əliyev tərəfindən yaxın gələcəkdə reallaşacaq və Böyük Qayıdışın ilk başlanğıcı olan Cocuq Mərcanlıda olduğu kimi, zəbt olunmuş bütün torpaqlarımız azad edilərək, abad yaşayış məskənlərinə çevriləcəkdir.

Ümummilli liderimiz Azərbaycan xalqının milli ideologiyasının, azərbaycançılıq məfkurəsinin inkişafı ilə xalqımızın birliyinin özülünü qurmuşdur.

Tam əminliklə demək olar ki, Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin yaradılması konsepsiyasını həyata keçirməklə bərabər Azərbaycan vətəndaşlarını birləşdirən, xalqımızı beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd və məram ətrafında səfərbər edən - azərbaycançılıq ideologiyasının da əsasını qoydu.

Heydər Əliyev azərbaycançılıq ideyasını ölkəmizin milli-etnik xüsusiyyətlərinə, müasir dövrün tələblərinə və dünyanın müasir şəraitinə uyğunlaşdıraraq, ona tam yeni bir məzmun verilməsinə nail oldu.

Hazırda banisi Heydər Əliyev olan azərbaycançılıq - bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycanla bağlılığı olan bütün soydaşlarımızın və həmvətənlərimizin milli birlik platformasıdır.

“Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!” fikrinin bütün arzuları bir araya gətirməsində böyük rolu oldu. Ulu öndər Heydər Əliyev bu çoxşaxəli fəaliyyəti və öz həyatı ilə ölməzlik hüququ qazanmışdır.

Müstəqil Azərbaycan dövləti və xalqı yaşadıqca, Heydər Əliyevi yaşadacaq, ona olan ümumxalq məhəbbətini nəsildən-nəslə ötürəcəkdir. O, müstəqil Azərbaycanın əbədiyaşar lideridir.

**Elmira SÜLEYMANOVA,**
**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman).**

# Azərbaycanın uğurlu inkişafının təməli

## *Ulu öndərin reallaşan ideyaları xalqımızın firavan gələcəyinə inam yaradır*

**Azərbaycanın müasir tarixinin bütöv bir qərinəsi böyük dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Dünya şöhrətli siyasi şəxsiyyət, ulu öndərimizin milli dövlətçilik ideyasının demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prinsipləri və azərbaycançılıq məfkurəsi əsasında gerçəkləşdirilməsində və müstəqil Azərbaycan dövlətinin qurulması naminə misilsiz tarixi xidmətləri vardır. Ölkəmizi uzunmüddətli inkişaf yoluna çıxaran ulu öndərimiz əhalinin rifah halının təminatını, vətəndaş firavanlığını başlıca hədəf kimi uğurla reallaşdırıb.**



Ümummilli liderimiz Heydər Əliyevin müdrik siyasətinin möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən müasir çağırışlara uyğun və qlobal məkanda baş verən proseslərin praqmatik mövqedən nəzərə alınmaqla uğurla davam etdirilməsi, ulu öndərimizin əbədiyaşar ideyalarının Azərbaycanın sabit və uzunmüddətli tərəqqi yolunu müəyyən edən inkişaf strategiyasının yüksək səviyyədə gerçəkləşdirilməsi son on beş ildə ölkəmizin bütün sahələrdə mühüm tarixi nailiyyətlərə imza atmasına səbəb olub. Bu dövr dinamik və davamlı inkişaf yolunda inamla irəliləyərək regionda güc mərkəzinə çevrilən Azərbaycan özünün müasir və tolerant cəmiyyət modeli, regionda sülhə, sabitliyə və əməkdaşlığa zəmin yaradan və qlobal önəm kəsb edən möhtəşəm layihələri ilə bütün əməkdaşlıq formatlarında etibarlı tərəfdaş kimi dünya birliyində nüfuzlu mövqeyə yüksəlib. Müstəqillik illərində ölkəmizin əldə etdiyi möhtəşəm nailiyyətlər Heydər Əliyevin milli inkişaf strategiyasına əsaslanır. Məhz bu strategiya ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesinin təməl prinsiplərini özündə ehtiva etməklə, həm də cəmiyyətdə birliyin və həmrəyliyin, tərəqqinin təmin olunmasına imkan vermişdir. Azərbaycanda haqq-ədalət prinsiplərinin cəmiyyət həyatının aparıcı amilinə çevrilməsində Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. O, özünün siyasi fəaliyyətində və dövlət idarəçiliyi təcrübəsində bu prinsipləri həmişə uca tutaraq, qanunçuluğa hamı tərəfindən eyni cür, dürüst əməl edilməsini sağlam cəmiyyətin təşəkkül tapması üçün başlıca təməl kimi müəyyənləşdirmişdir.

Ulu öndər Azərbaycana rəhbərlik etdiyi bir qərinədən artıq dövrdə ölkənin həyatında, xalqının taleyində elə bir əzəmətli rol oynayıb ki, bu, əsrlər boyu unudulmayacaq. Respublikamızın hər bir bölgəsində Heydər Əliyevin quruculuq fəaliyyətinin silinməz izləri var. Ulu öndər həyatı boyu həmişə xalqa arxalanmışdı. Ümummilli lider deyirdi: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqının mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib". Müstəqil Azərbaycan dövlətinin keçdiyi sınaqlar, dövlətçiliyimizin ən ağır günlərində Heydər Əliyevin göstərdiyi qətiyyət bu sözlərdəki həqiqəti dəfələrlə təsdiqləyib. Bismarkın belə bir kəlamını yada salıram: "Şəxsiyyəti olmayan xalqın azadlıq uğrunda mübarizəsi ağlasığmazdır. Xalq öncə şəxsiyyət ətrafında birləşir, yalnız bundan sonra ideyalar haqqında düşünməyə başlayır". Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması, əbədi olması, ölkəmizin dünya birliyində layiqli yerini tutması ümummilli liderimiz Heydər Əliyevin ən böyük arzusu idi. Fəxrlə "Mən öz mənalı həyatımın düz altmış ilini xalqımın bugünü və sabahı ilə yaşamışam" söyləyən ulu öndərimiz Heydər Əliyev həqiqətən də xalqımızın müdrik və əvəzsiz lideri idi.

Dövlət o vaxt güclü və qüdrətli olur, qarşısına çıxan maneələri dəf edə bilir ki, onun rəhbəri ilə xalqı arasında birlik möhkəm və sarsılmaz tellərlə bağlı olsun. Məhz bu birlik və həmrəylik tarixin müxtəlif dönəmlərində ölkəmizin taleyində əvəzsiz rol oynayıb, xalqımızı başının üstünü almış bütün bəlalardan hifz edib qoruyub. Onun bir sözü ilə, bir müraciəti ilə milyonlarla insan ayağa qalxır, öz rəhbərinin arxasınca gedir, ən çətin anlarda onun yanında olurdu. Müasir Azərbaycan tarixinin ən parlaq səhifələri, o cümlədən 1969-cü ildən başlayaraq respublikamızda cərəyan edən proseslər, əldə etdiyimiz uğurların hamısı birbaşa Heydər Əliyevin şəxsiyyətindən qaynaqlanır. Bu dahi insan Azərbaycanı qüdrətli bir dövlət, xalqını isə güclü bir millət kimi formalaşdırmaq kimi son dərəcə çətin bir missiyanı öz üzərinə götürüb və şərəflə yerinə yetirib. Siyasi və iqtisadi cəhətdən azad olmayan xalq heç vaxt müstəqil ola bilməz. Bu uzaqgörən və düşünülmüş siyasətin özülü hələ ötən əsrin 70-80-ci illərində qoyulub. Ulu öndərimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi o dövr quruculuq və yaradıcılıq salnaməmizə ən parlaq səhifələr kimi daxil olub. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyinin təməli o illərdə qoyulmuş güclü sosial-iqtisadi bazaya və intellektual potensiala söykənir. Məhz o illərdə ölkəmizin gələcəyi üçün çox mühüm addımlar atılıb. İnfrastruktur yeniləşib, neft sənayesi yenidən qurulub, nəhəng kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma müəssisələri yaradılıb, elmi-mədəni tərəqqiyə nail olunub, ölkəmizin iqtisadi, sosial, elmi-texniki potensialı möhkəmləndirilib. Çoxsaylı istehsalat kompleksləri, mədəniyyət ocaqları istifadəyə verilib, kənd təsərrüfatında yüksəlişə nail olunub. Bununla da böyük öndərimiz hələ siyasi rəhbərliyinin birinci mərhələsində yeni inkişaf strategiyasını müəyyənləşdirib, onu uğurla həyata keçirmişdi.

Ensiklopedik biliyə, güclü iradəyə və milli ruha malik olan Heydər Əliyev Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə xalqının iradəsinə tabe olaraq 1993-cü ildə ölkə rəhbərliyinə qayıtmaqla respublikamızın dərin ictimai-siyasi, iqtisadi böhrandan çıxarılmasına, vətəndaş müharibəsinin qarşısının alınmasına, Azərbaycanın dövlət müstəqilliyinin qorunmasına və möhkəmləndirilməsinə, beynəlxalq aləmdə uğurlar qazanmasına nail olmuşdur. Bu, sözün əsl mənasında "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib meydana atılan vətən oğlunun misilsiz fədakarlığı idi. Ümummilli liderimiz Heydər Əliyev qısa müddət ərzində Azərbaycanı sabitlik, vətəndaş həmrəyliyinin, əmin-amanlığın hökm sürdüyü, demokratik təsisatların fəaliyyəti üçün geniş şərait yaradıldığı ölkəyə, xarici və daxili investorlar üçün isə əlverişli imkanlar açan, hərtərəfli əməkdaşlığa hazır olan bir tərəfdaşa çevirmişdir. Azərbaycan ümummilli liderin əzmi və iradəsi ilə düşdüyü ağır vəziyyətdən qurtulmuş, beynəlxalq birliyin tamhüquqlu üzvlərindən biri olmuşdur. Azərbaycan dövlətçiliyinin qurulması, milli müstəqilliyimizin və milli azadlığımızın, milli dəyərlərimizin qorunub saxlanılması, milli ordunun formalaşması, ictimai-siyasi, makroiqtisadi, makromaliyyə sabitliyinin bərqərar olması, cəmiyyətin bütün sahələrində köklü islahatların aparılması, xalqın rifahına xidmət edən "Əsrin müqaviləsi", tarixi İpək Yolunun bərpası, sahibkarlıq fəaliyyətinin genişlənməsi, ölkəmizə investisiya qoyuluşunun vüsət alması, respublikamızın beynəlxalq arenada nüfuzunun artması və başqa sadalanması vaxt etibarı ilə mümkün olmayan nə qədər möhtəşəm işlər məhz Heydər Əliyevin adı ilə bağlıdır. Sabitlik, təhlükəsizlik, tərəqqi ümummilli liderimizin dövlət siyasətinin əsasını təşkil edirdi. 1993-cü ildən başlayaraq müstəqil respublikamız sözün həqiqi mənasında sıçrayışlı inkişaf yolu keçib, daxili və xarici siyasətdə, demokratiya yolunda, sosial-iqtisadi eyni zamanda mədəni sahələrdə, ordu quruculuğunda köklü dəyişikliklər baş verib. Böyük öndərimizin işləyib hazırladığı və zərgər dəqiqliyi ilə mərhələ-mərhələ reallaşdırdığı milli neft strategiyası ölkəmizə uğurlar gətirib və bundan sonra da xalqımızın firavan həyatının yüksəlməsinə xidmət edəcəkdir. Bu gün böyük inam hissi ilə qeyd edə bilərik ki, ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışı illərində söylədiyi "Biz bu çətin günləri keçib gedəcəyik, müstəqil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutacaq. Hər bir Azərbaycan vətəndaşı özünün bu müstəqil dövlətə mənsub olduğunu böyük qürur hissi ilə bəyan edəcəkdir" sözləri artıq həyatımızın ən ümdə reallığıdır.

Ulu öndərimiz Heydər Əliyev hər dövrü, hər mərhələsi məktəb olan qeyri-adi ömür yaşamış, yalnız mənsub olduğu Azərbaycan xalqının, türk dünyasının deyil, ümumən dünya xalqlarının təsəvvüründə özünün mükəmməl obarızını aydın cizgiləri ilə seçilən möhtəşəm portretini yaratmışdır. O, öz çıxışlarında qeyd edirdi: "Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm". Heydər Əliyevin şəxsiyyətində təzahür edən milli iradə, möhtəşəm xalq ruhudur ki, Azərbaycanı hər cür iqtisadi, sosial-siyasi problemlərdən çıxararaq gələcəyə — əbədi müstəqilliyə aparır. Biz 1993-cü ildən etibarən milli ideologiyanın, azərbaycançılıq ideologiyasının müasir elmi-nəzəri standartlar sayəsində formalaşmasının şahidiyik. Müasir dünya yalnız iqtisadi, sosial, siyasi münasibətlər dünyası deyil, həm də etnik münasibətlər dünyasıdır. Odur ki, bu və ya digər xalqın ön sıralarda getməsi üçün tarixən qazandığı etnik potensialdan tələb olunan səviyyədə istifadə etməsi lazım gəlir. Bu gün müstəqil Azərbaycan tolerant ölkə kimi tanınır. Azərbaycanlılar dünyanın müxtəlif ölkələrində yaşasalar da onları bir-birinə bağlayan olduqca möhkəm mənəvi-ideoloji vasitələr vardır. Bu, ana dilidir, ata yurdu Vətəndir, tarixən formalaşmış etnik-mədəni sistemdir. Eyni zamanda milli liderdir. Heydər Əliyevin siyasi fəaliyyətində müstəqil Azərbaycan dövlətinin daxili möhkəmliyini, beynəlxalq nüfuzunu qorumaq nə qədər mühüm yer tutursa, dünya azərbaycanlılarının milli birliyi, dünya xalqları arasında özünəlayiq mövqe qazanması da o qədər əhəmiyyət daşıyır. Görkəmli siyasi xadim dəfələrlə qeyd edirdi ki, müstəqil Azərbaycanın inkişafında dünyanın müxtəlif ölkələrinə yayılmış azərbaycanlıların həmrəyliyi, mənəvi-ideoloji, siyasi köməyi böyük rol oynayır. Bir xalq olaraq əsas vəzifələrimizdən biri də həm həmrəyliyi gücləndirməkdən, həm də həmin köməyin daha intensiv xarakter almasını təmin etməkdən ibarətdir. Xarici ölkələrə səfərlərində Azərbaycan icmalarının nümayəndələri ilə görüşüb, onlara hərtərəfli dəstək verən ulu öndərimiz dünya azərbaycanlılarının milli birliyi uğrunda mübarizəni Azərbaycan dövləti siyasəti səviyyəsinə qaldırmışdır. Heydər Əliyev elə bir proqram hazırlamışdır ki, ondan sonra da bu siyasətin istiqamətləri aydın və məqsədyönlüdür.

Bu gün dünyanın müxtəlif bölgələrində baş verən xoşagəlməz hadisələr fonunda Azərbaycanda müşahidə olunan dinamik inkişaf, sabitlik, cəmiyyət həyatının ahəngdar ritmi Azərbaycanın mühüm nailiyyətidir. Müstəqil Azərbaycanın düşünülmüş, praqmatik, müstəqil daxili və xarici siyasəti dövlətimizi və xalqımızı qlobal aləmdə baş verən bütün problemlərdən sığortalayır, milli birliyimizi daha da gücləndirir. Hələ 2003-cü ildə Prezident seçkilərində cənab İlham Əliyev bəyan etmişdir ki, əgər Azərbaycan xalqı ona etimad göstərərsə o Heydər Əliyevin siyasətini davam etdirəcək. Ulu öndərimizin siyasi kursuna alternativ tanımayan xalqımız bütün Prezident seçkilərində bu siyasi kursun layiqli davamçısı möhtərəm İlham Əliyevə etimad göstərdi. Bu etimad eyni zamanda görülən işlərə verilən yüksək qiymətin ifadəsi idi. Möhtərəm Prezidentimiz İlham Əliyev son on beş ildə titanik fəaliyyəti ilə verdiyi bütün vədləri yerinə yetirdi. 11 aprel 2018-ci ildə demokratik prinsiplərə əməl olunmaqla, şəffaf, ədalətli keçirilən Prezident seçkilərində yenidən cənab İlham Əliyevin parlaq qələbəsi xalqımızın Heydər Əliyev siyasətinə inamını bir daha təsdiqlədi. Bu inam müstəqil respublikamızın firavan gələcəyinə təminat yaradır.

**Yusif ƏLƏKBƏROV,**
**"Prant" şirkətinin prezidenti,**
**beynəlxalq mükafatlar laureatı,**
**Beynəlxalq Elmlər Akademiyasının**
**fəxri üzvü.**

# Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş tədbir

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 1 saylı Bakı Tibb Kollecində ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş tədbir keçirilmişdir.



Tədbirdə iştirak edən Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov və aparatın məsul əməkdaşları, KİV nümayəndələri öncə məktəbin həyətində kollecin tələbələrinin əl işlərindən ibarət sərgiyə baxdılar. Tədbiri kollecin direktoru, t.e.d. professor Nəriman Mövsümov açaraq ulu öndər Heydər Əliyevin keçdiyi şanlı həyat yolundan danışdı. Sonra ulu öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olundu.

Tədbirdə Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov çıxış edərək bildirdi ki, Heydər Əliyevin Azərbaycana rəhbərliyi ölkənin xoş gələcəyinə, müstəqillik dövrünə hazırlığın ilkin mərhələsi kimi səciyyələndirilə bilər. Heydər Əliyevin siyasi nüfuzu və onun vaxtında qəbul etdiyi qərarlar Azərbaycanı o dövrdə baş alıb gedən hərcmərclikdən, xaosdan, daxili və xarici düşmənlərin təhdid və təzyiqlərindən xilas etdi. Bu gün Heydər Əliyevin dövlətçiliklə bağlı ideyalarını, siyasi kursunu Prezident İlham Əliyev ləyaqətlə davam etdirir. Onun həyata keçirdiyi islahatlar və uzaqgörən, məqsədyönlü xarici siyasət sayəsində Azərbaycan Cənubi Qafqazda lider dövlətə çevrilmişdir.

Tədbirdə kollecin özfəaliyyət dərnəyinin üzvləri tərəfindən musiqi, rəqs, bədii qiraət kompozisiyaları tədbir iştirakçılarına təqdim olundu.

Kollecin I kurs tələbəsi, gözdən əlil Xanım Mehdiyeva "Aralıqda söz olmasın" mahnısını ifa etdi. II kurs tələbəsi Gülər Dadaşova ulu öndərə həsr olunmuş şeir parçaları söylədi, həmin kursun tələbəsi Nazlı Zərbəliyevanın ifa etdiyi milli rəqslər də alqışlarla qarşılandı.

**Elşad DAĞLI.**

# "Heydər Əliyev və Azərbaycan" mövzusunda rəsm müsabiqəsi

Səbail rayonunun mərkəzindəki "Sahil bağı"nda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində rayon icra hakimiyyətinin təşkilatçılığı ilə rayon məktəbliləri və gənc rəssamların iştirakı ilə "Heydər Əliyev və Azərbaycan" mövzusunda rəsm müsabiqəsi keçirilmişdir.



Bayramsayağı bəzədilmiş "Sahil bağı"nda böyük abadlıq işləri aparılmış, park başdan-başa yenilənmiş, müxtəlif kompozisiyalar hazırlanmışdır. Parkdakı gül kompozisiyaları insanları dönədönə ayaq saxlamağa, dahi şəxsiyyətə xalq məhəbbətinə güllərin, çiçəklərin dili ilə baxmağa vadar edirdi.

Rayonun orta məktəblərində, həmçinin Bakı Oksford məktəbində oxuyan 200-dən çox məktəbli, ali məktəblərin tələbələri, 100-dən çox gənc rəssam ulu öndər Heydər Əliyev və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın portretlərini, həmçinin doğma Azərbaycanın müxtəlif guşələrini, gözəl mənzərə və gül kompozisiyalarını əks etdirən müxtəlif rəsmlər çəkmişlər. Tanınmış rəssamlar, eləcə də müəllimlər məktəblilərə rəsmlərin çəkilişində müvafiq məsləhətlər vermişlər.

Eyni zamanda parkda gənc rəssamların mövzuya aid çəkdikləri rəsmlərdən ibarət sərgi də nümayiş etdirilmiş, sərgi tədbirin qonaqları və parka toplaşan paytaxt sakinləri tərəfindən böyük maraqla qarşılanmışdır. Gənc rəssamlar öz əsərlərinin nümayişi vaxtı tamaşaçılara əsərləri ilə bağlı izahlar vermişlər.

Rayon musiqi məktəblərinin ansamblları, solistləri, rəqqasları Sahil parkına toplaşanlar üçün konsert proqramları ilə çıxış etmişlər. Məktəblilərin iştirakı ilə müxtəlif Fleş-moblar keçirilmişdir.

Azərbaycan Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağali İbrahimovun rəhbərliyi, Uşaq Yaradıcılıq Mərkəzinin və rayon nümayəndələrinin iştirakı ilə yaradılmış münsiflər heyəti məktəblilərin rəsmlərinə baxaraq qalibləri müəyyən etmişdir. Müsabiqənin qalibləri Səbail RİH-nin Fəxri Fərmanları və hədiyyələri ilə, digər iştirakçılar və sərgidə əsərləri nümayiş etdirilən gənc rəssamlar Səbail RİH-nin sertifikatları ilə mükafatlandırılmışlar.

Səbail Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, YAP Səbail Rayon Təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev, tanınmış ictimai xadim Fəxriyyə Xələfova və digər rəsmi qonaqlar, rayonun idarə, təşkilatların rəhbərləri, ali məktəb rektorları, pedaqoji kollektivlərin, veteranların və ictimaiyyətin nümayəndələri parkı gəzmiş, məktəblilərin çəkdikləri rəsmlər, parkdakı sərgi və burada yaradılan gül



kompozisiyaları ilə tanış olmuş, iştirakçılarla səmimi söhbətlər etmişlər.

Gün ərzində davam edən sərgi və rəsm müsabiqəsi tədbirində iştirak edən şəhər sakinlərinin və rayon ictimaiyyəti nümayəndələrinin diqqətini cəlb etmiş, maraqla qarşılanmışdır.

**Məhəmməd VƏLİYEV,**
**"Respublika".**

# Ənənəvi şahmat turniri

Mayın 10-da "Azərbaycan" nəşriyyatının, Şahmat Federasiyasının, Milli Olimpiya Komitəsinin və Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının dəstəyi ilə kütləvi informasiya vasitələri təmsilçiləri arasında ümummilli lider Heydər Əliyevin 95 illiyinə həsr olunmuş ənənəvi şahmat turnirinə yekun vurulub. "Azərbaycan" nəşriyyatının baş direktoru Ağabəy Əsgərov tədbiri açaraq jurnalistləri salamladı və dünya şöhrətli siyasi xadim ulu öndər Heydər Əliyevin Azərbaycanda bütün sahələrin, xüsusən də şahmatın inkişafına həmişə böyük diqqət və qayğı göstərdiyini vurğulayaraq bu siyasi kursun hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirdi.

Sonra Azərbaycanın veteran şahmatçısı Tofiq Ağayev Şahmat Federasiyasının prezidenti Elman Rüstəmovun iştirakçılara və təşkilatçılara təbrikini və hədiyyəsini təqdim etdi.



Mərasimdə çıxış edən Afiq müəllim bu turnirin artıq 22-ci dəfə keçirildiyini, bu dəfə 9 mətbuat orqanından 14 şahmatçının qeydiyyatdan keçdiyini və KİV əməkdaşlarının vaxt azlığını nəzərə alaraq, turnir "rapid" (hər oyunçuya 15 dəqiqə vaxt ayrılır) üsulu ilə keçirildiyini qeyd etdi. Oyunlara 29 aprel tarixində Respublika Şahmat Mərkəzində beynəlxalq dərəcəli hakim Nurəli Məmmədzadənin hakimliyi ilə start verildi. Qaliblər yalnız axırıncı, 9-cu turdan sonra müəyyən edildi. Nəticədə "AZƏRTAC"ın əməkdaşı Ramiz Quliyev, "Metro" qəzetindən Rövşən Abbasov, "Azxəbər.com"un əməkdaşı Mehdi Abbasov və "Sport-24.Az"ın əməkdaşı Ceyhun Əliyev eyni miqdarda-7 xal topladılar. Adətən belə hallarda qalib FİDE-nin qaydalarına görə əmsallar cədvəlindən istifadə etməklə müəyyən olunur. Bu dəfə əmsallar da eyni olduğundan dördü də qalib hesab olundu. Qalan yerlərə 6 xalla veteran jurnalist Tofiq Ağayev və "Azərbaycan" qəzetindən Ağəli Məmmədov, "AZƏRTAC"ın müxbirləri Elvin Camalov, Samirə Allahverdiyeva, "MOK"-dan Cəmaləddin Rəhmanov, "Olimpiya dünyası"ndan Azər Əlizadə, "Seçmə" qəzetindən Fikrət Məmmədov və b. sahib oldular.

Sonda "Azərbaycan" nəşriyyatının baş direktoru Ağabəy Əsgərov qaliblərə hədiyyələri təqdim etdi.

**Kamil İSMAYILOV,**
**"Respublika".**

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar olaraq "Azərişıq" ASC tərəfindən müxtəlif tədbirlər həyata keçirilib

Müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə ictimai həyatın bütün sahələri ilə yanaşı, yeni yaşıllıqların salınmasına da xüsusi diqqət yetirib. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin ölkəmizdə ekoloji mühitin, xüsusilə yaşıllıqların mühafizəsi ilə bağlı tapşırıq və tövsiyələrinə, həmçinin "Azərişıq" ASC-də yaranmış ənənəyə uyğun olaraq, növbəti güləkmə aksiyası Bakı şəhərinin Zirə Mədəniyyət Mərkəzi - Eko-Park ərazisində keçirilib, 20 mindən artıq gül əkilib. Əkilən güllərin mühafizəsi və onlara mütəmadi qulluq göstərilməsi məqsədilə bütün zəruri tədbirlər görülüb. "Azərişıq" ASC-nin əməkdaşları bu xeyirxah və nəcib tədbirlərdə hər zaman yüksək əhval-ruhiyyə ilə iştirak edirlər.



**Qədir ASLAN,**
**"Respublika".**

# Bakıda "Sevdiyim" layihəsinin təqdimatı olub

**Mayın 11-də Bakıda ümummilli lider Heydər Əliyevin anadan olmasının 95, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileylərinə həsr olunmuş "Sevdiyim" layihəsinin təqdimat mərasimi keçirilib.**





AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov, mədəniyyət naziri Əbülfəs Qarayev, gənclər və idman naziri Azad Rəhimov, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

Mərasim Azərbaycanın dövlət himninin səsləndirilməsi ilə başlayıb.

ASAN Radionun direktoru Emin Musəvi tədbiri açaraq layihə haqqında məlumat verib. Bildirib ki, "Sevdiyim" layihəsi "ASAN xidmət", "ASAN Könüllüləri" Təşkilatı və ASAN Radionun birgə təşkilatçılığı ilə reallaşıb. Layihənin məqsədi tarixi ənənələrin qorunması və təbliği, milli mənəvi dəyərlərə sadiqlik, azərbaycançılıq, dövlətçilik məfkurəsinin genişləndirilməsidir. Layihə çərçivəsində görkəmli şair, dramaturq Cəfər Cabbarlının üçrəngli Azərbaycan bayrağına həsr olunmuş "Sevdiyim" şeiri əsasında yüzillik tariximizin əks olunduğu klip ərsəyə gəlib. Əsərin bəstəkarı və ifaçısı Əməkdar Artist Tünzalə Ağayeva, klipin rejissoru ülviyyə Könüldür.

Mərasimdə çıxış edən Prezidentin köməkçisi Fuad Ələsgərov deyib ki, bugünkü tədbir iki mötəbər hadisə - ümummilli lider Heydər Əliyevin 95 illik və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyləri münasibətilə keçirilir. Bu gün həm də artıq qeyd edildiyi kimi, Azərbaycanın dövlət bayrağına həsr olunmuş klipin təqdimatında iştirak edirik. Müstəqil Azərbaycan dövlətinin üçrəngli bayrağı dövlət rəmzi kimi ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən 1918-ci il noyabrın 9-da təsdiq edilib. Təəssüflər olsun ki, bu bayraq yalnız 23 ay Xalq Cümhuriyyətinin üzərində dalğalana bildi. Lakin Cümhuriyyətin süqut etməsinə baxmayaraq, Azərbaycan xalqı müstəqillik bayrağımızı daim öz qəlbində yaşadıb və 70 il sonra ona bir daha sahib çıxıb. 1990-cı il noyabrın 17-də xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında üçrəngli bayrağımız Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edildi. Həmin gün dövlət bayrağımız sessiyaya gətirildi və muxtar respublikanın Ali Məclisində ucaldıldı. Bu, çox cəsarətli və fədakar addım idi. Çünki o zaman Azərbaycan hələ də Sovet İttifaqının tərkib hissəsi idi. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, bizim müstəqilliyə gedən yolumuz məhz həmin gündən başlamışdır.

Fuad Ələsgərov qeyd edib ki, ümummilli lider Heydər Əliyev üçrəngli bayrağımıza sadəcə dövlət rəmzi kimi yox, dünya azərbaycanlılarını birləşdirən simvol kimi dəyər verirdi. O deyirdi: "Kim Azərbaycanı sevirsə, Azərbaycanın müstəqil dövlət olmasını, işğal edilmiş torpaqlarının azad olunmasını, ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasını istəyirsə, o, bu bayraq altında birləşməlidir". Üçrəngli bayrağımızın Azərbaycan dövləti tərəfindən təsdiq edilməsi barədə məsələ də Azərbaycanın Ali Soveti qarşısında məhz Ümummilli Liderimiz tərəfindən qaldırılmışdı. Yalnız bundan sonra, 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Dövlət bayrağı haqqında" Qanun qəbul edərək üçrəngli bayrağı dövlət bayrağı elan etdi. 1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən dövlət bayrağını bərpa etdi.

Prezidentin köməkçisi bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı Sərəncamla hər il 9 noyabr tarixi ölkəmizdə Dövlət Bayrağı Günü kimi qeyd olunur. Dövlətimizin başçısı 2007-ci il noyabrın 17-də "Bakı şəhərində Dövlət Bayrağı Meydanının yaradılması haqqında" Sərəncam imzalayıb və 2010-cu il sentyabrın 1-də dünyanın ən hündür bayrağının ucaldığı Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimi keçirilib. Açılış mərasimində Azərbaycan Prezidentinin üçrəngli bayrağımız barədə fəxrlə dediyi sözlər hamımızın yaddaşına həkk olunub. O xüsusilə deyib: "Bizim bayrağımız qürur mənbəyimiz, canımız, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaq. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaq. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".

Fuad Ələsgərov deyib ki, artıq 28 ildir üçrəngli bayrağımız enmədən başımız üzərində dalğalanır. Ümummilli Liderimizin dəfələrlə dediyi kimi, Azərbaycanın bayrağı sadəcə bayraq deyil, o, bizim dövlətçiliyimizin və müstəqilliyimizin rəmzidir. Qürur hissi ilə deyə bilərik ki, bu gün bu bayraq adi dövlətin deyil, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizə apararaq şəhidlər vermiş, dünyaya özünü tanıda bilmiş, güclü iqtisadiyyat qurmuş, regionda aparıcı qüvvəyə çevrilmiş dövlətin bayrağıdır. Prezident İlham Əliyevin söylədiyi kimi, bu gün Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları Azərbaycanı görsəydilər, fəxr edərdilər. Bu nailiyyətlərin əldə edilməsinə görə Azərbaycan xalqı, əlbəttə ki, ilk növbədə, müasir dövlətimizin qurucusu olan ulu öndər Heydər Əliyevə borcludur. Öz ömrünü Azərbaycan dövləti və xalqının inkişafına həsr etmiş bu dahi insanın Azərbaycan tarixində rolu əvəzsizdir. Heydər Əliyev şəxsiyyəti bugünkü Azərbaycanın uğurlu inkişafının təməlində dayanan bir amildir. 1969-cu ildə Ümummilli Lider Azərbaycana rəhbərlik etməyə başlayanda ölkəmiz Sovet İttifaqında ən geridə qalmış respublikalardan biri kimi tanınırdı. Lakin onun 13 illik rəhbərliyi dövründə Azərbaycan Sovet İttifaqının ən inkişaf etmiş və qabaqcıl respublikalarından birinə çevrildi. 1993-cü ildə isə Ulu Öndərin qarşısında daha çətin vəzifələr dururdu. Azərbaycan, demək olar ki, öz müstəqilliyini itirmək ərəfəsində idi. Ölkə parçalanırdı, idarəolunmaz vəziyyət yaranmışdı. İqtisadiyyat tənəzzülə uğramışdı. Belə bir vəziyyətdə Azərbaycan xalqı bir daha öz müdrikliyini göstərərək Ulu Öndərə üz tutdu və onu ölkəyə rəhbərlik etməyə çağırdı. Bu, müasir tariximizin həlledici dönüş nöqtəsi oldu. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi on il ərzində ölkəmiz böyük və uğurlu inkişaf yolu keçib. Azərbaycanda siyasi sabitlik təmin edilib, dövlət quruculuğu prosesi uğurla aparılıb, müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilib. Köklü siyasi islahatlarla yanaşı, iqtisadi-sosial sahədə böyük layihələr həyata keçirilib, ölkəyə irihəcmli investisiyalar cəlb edilib. Bu gün Ulu Öndərin siyasəti Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ümummilli Liderin qoyduğu təməllər üzərində güclü dövlət qurulub. Azərbaycanda siyasi sabitlik hökm sürür, iqtisadiyyat inkişaf edir və müstəqil xarici siyasət aparılır. üçrəngli bayrağımız BMT, Avropa Şurası, ATƏT və digər nüfuzlu beynəlxalq təşkilatların üzərində dalğalanır.

Diqqətə çatdırılıb ki, müasir Azərbaycanın əldə etdiyi əsas uğurlardan biri də güclü ordunun yaradılmasıdır. Hazırda Azərbaycan Ordusu müasir silahlarla təchiz edilmiş, yüksək döyüş hazırlığına malik, Ali Baş Komandanın rəhbərliyi ilə ən çətin tapşırıqların öhdəsindən gəlməyə qadir, qüvvətli bir ordudur. Bu ordu öz gücünü 2016-cı ilin Aprel döyüşlərində göstərdi və üçrəngli bayrağımızı düşməndən azad edilmiş torpaqlarda ucaltdı. Əminik ki, çox yaxın zamanlarda, Azərbaycanın dahi dramaturqu və şairi Cəfər Cabbarlının sözləri ilə desək, "yaşıl donlu, mavi gözlü, al yanaqlı" bayrağımız Şuşada, bütün Qarabağda dalğalanacaq.

Prezidentin köməkçisi Azərbaycanın dövlət bayrağına həsr edilmiş bu gözəl layihənin ərsəyə gəlməsində xidməti olmuş "ASAN xidmət"ə, "ASAN könüllüləri"nə, ASAN Radioya, klipin bütün yaradıcı heyətinə təşəkkür edib. Bildirib ki, bu əsər Azərbaycan xalqının üçrəngli bayrağına bir əsrlik sadiqliyini, bağlılığını və hörmətini nümayiş etdirir.

Sonra mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək layihənin əhəmiyyəti haqqında danışıb. Bu günlərdə dünya azərbaycanlılarının ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyini geniş şəkildə qeyd etdiyini söyləyən nazir Ümummilli Liderin Azərbaycan dövləti və xalqı qarşısındakı misilsiz xidmətlərindən bəhs edib. O deyib ki, Azərbaycan xalqı xoşbəxtdir ki, onun Vətəninə və xalqına əvəzsiz xidmətləri ilə əbədilik qazanmış ümummilli lideri - Heydər Əliyevi var. Azərbaycanın dövlət müstəqilliyinin bərpası ərəfəsində gedən prosesdə Heydər Əliyev tarixi şəxsiyyət, lider olaraq Azərbaycan xalqının taleyinə təsir göstərən əhəmiyyətli addımlar atdı. Ümummilli Lider Azərbaycanı məhv olmaq, müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. Heydər Əliyev xalqımızın yaddaşına əbədi həkk olunmuş dahi şəxsiyyətdir. Onun Azərbaycana rəhbərliyinin hər iki dövründə gördüyü misilsiz işlər heç vaxt unudulmayacaq. Ulu Öndər dövlət rəmzlərini, xüsusən, dövlət bayrağını həmişə diqqət mərkəzində saxlayıb. O, Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörməti Vətənə, xalqa, dövlətə olan məhəbbət və hörmətə bərabər tuturdu. Bu gün Heydər Əliyevin siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının həyata keçirdiyi siyasət, irəli sürdüyü hər bir təşəbbüs ölkəmizi daha da inkişaf etdirir, daha parlaq gələcəyə aparır.

Gənclər və idman naziri Azad Rəhimov bildirib ki, 2018-ci il ölkəmizin ictimai-siyasi həyatında əlamətdar hadisələrlə zəngindir. Prezident seçkiləri, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95, Azərbaycan Xalq Cümhuriyyətinin, ordumuzun, parlamentimizin 100 illik yubileyləri bu mühüm tədbirlərdəndir. Azərbaycan son 100 ildə çox çətin tarixi proseslərdən keçərək hazırda öz tarixinin ən şanlı səhifələrini yaşayır. Ümummilli Liderimizin uzaqgörənliyi, müdrikliyi və əzmkarlığı nəticəsində Azərbaycanın müstəqilliyi əbədi və sarsılmaz olub. Heydər Əliyevin həyatı və fəaliyyəti Azərbaycanın müstəqil olmasına yönəlmişdi. Onun hələ Sovet İttifaqı dövründə Azərbaycana rəhbərlik etməsi, sonradan SSRİ-nin əsas rəhbərlərindən olaraq gördüyü işlər müstəqil dövlətimizin qurulması üçün əsaslar yaratmışdı. O zaman aparılmış ciddi iqtisadi islahatlar, kadr islahatları, ən əsası gənclərimizin təhsil almaq üçün xaricə göndərilməsi xüsusilə qeyd edilməlidir. Ulu öndər Heydər Əliyev gənclərin milli ruhda böyüməsi, onlara vətənpərvərlik hisslərinin aşılanması məsələsini daim diqqətdə saxlayırdı. Onun yalnız dahilərə məxsus diqqəti, yaddaşı, təfəkkürü, hadisələri və faktları təhlil etmək bacarığı hamımız üçün böyük bir məktəbdir. Çox xoşbəxtik ki, ümummilli Liderin siyasəti bu gün də uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan regionun lider dövlətinə çevrilib. Bu gün Azərbaycan dünyada hörmətlə və ehtiramla qarşılanan dövlətlərdəndir.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev bildirib ki, Ulu Öndərimizin 95 illiyi və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi önəmli hadisələrdir. Bu gün Ulu Öndəri və Azərbaycan Xalq Cümhuriyyətini birləşdirən bir çox məqamlar var. Bu məqamlardan ən əsası isə üçrəngli Azərbaycan bayrağıdır. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra ilk dəfə üçrəngli bayrağımız təsis olundu, lakin cəmi 23 ay müddətində yaşaya bildi. Amma Ulu Öndər Heydər Əliyev əsrin sonunda həmin üçrəngli bayrağı bir daha enməmək şərti ilə ucaltdı. Ona görə də bu bayraq əslində Ulu Öndər və Cümhuriyyət kimi tarixi hadisələri birləşdirən rəmzi bir nüansdır.

Sonra "Sevdiyim" şeiri əsasında yüzillik tariximizin əks olunduğu klip təqdim edilib.

Əməkdar Artist Tünzalə Ağayeva kliplə bağlı təəssüratlarını bölüşüb. O deyib: "Biz xoşbəxt xalqıq ki, müstəqilliyimizin 100 yaşını qeyd edirik. Bu gün biz həm də Ulu Öndərimizin 95 illiyini qeyd edirik. Ümummilli Liderimizin əziz xatirəsi həmişə qəlbimizdədir və onun "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri bizə ruh verir".

Klipin rejissoru Ülviyyə Könül belə mühüm bir layihədə iştirak etməkdən qürur duyduğunu söyləyib.

Tədbir konsert proqramı ilə davam edib.

AZƏRTAC

# Mir Cəlal Paşayev Azərbaycan ədəbiyyatında dəst-xətti ilə seçilən yazıçı, əsl elm fədaisi olub

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda görkəmli yazıçı və böyük ədəbiyyatşünas Mir Cəlal Paşayevin 110 illik yubileyinə həsr olunan elmi konfrans keçirilib.**




AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları foyedə Mir Cəlal Paşayevin elmi və ədəbi irsinə həsr edilən sərgi ilə tanış olublar.

Konfransda AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli görkəmli yazıçı və ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin zəngin bədii yaradıcılığından, elmi-pedaqoji fəaliyyətindən danışıb. Bildirilib ki, Mir Cəlal XX əsr Azərbaycan ədəbiyyatında dəyərləndirib. Bildirib ki, Mir Cəlal milli mənəvi dəyərlərin klassik ənənələrə uyğun inkişafını və bu istiqamətdə yaranan problemləri, xalq həyatının real görüntüsünü nəsr dilində aydın, qabarıq şəkildə verib.

Görkəmli yazıçının ilk irihəcmli əsəri - "Dirilən adam" romanı haqqında danışan İ.Həbibbəyli onun heç za-da xüsusi yer tutur.

Mir Cəlal Paşayevin həm namizədlik, həm də doktorluq dissertasiyasının ədəbiyyat nəzəriyyəsi məsələlərinə həsr olunduğunu deyən AMEA-nın vitse-prezidenti onun "Ədəbiyyatşünaslığın əsasları" kitabının ədibin ədəbiyyat nəzəriyyəsi haqqındakı baxışlarının ümumiləşmiş yekunu oldu-



dəst-xətti ilə seçilən yazıçı, tələbələri üçün xeyirxah müəllim və əsl elm fədaisi olub.

Mir Cəlal Paşayevin Ədəbiyyat İnstitutunda elmi fəaliyyətinin əsas istiqamətləri barədə məlumat verən AMEA-nın vitse-prezidenti XX əsrin ədəbi-elmi fikrinin korifeylərindən sayılan Mir Cəlal Paşayevin çağdaş Azərbaycan tarixində ədəbiyyatşünas-nəzəriyyəçi alim kimi müstəsna və özünəməxsus yer tutduğunu deyib. O, Mir Cəlal Paşayevin yaradıcılığının xarakteristikasının cəmiyyət məsələlərindən daha çox insana həsr olunduğunu bildirib: "Alim əsərlərində sadə insanların obrazını yaradaraq, onların dərin mənəviyyatdakı işığını, insanlığını böyük ədəbiyyatın mövzusuna çevirib. Onun əsərlərində həyatın reallıqları, insanın mənəvi dünyası öz inikasını tapıb".

Mir Cəlal Paşayevin görkəmli ədib, pedaqoq, həm də insanpərvər bir şəxsiyyət olduğunu söyləyən İ.Həbibbəyli ədibin "Bir gəncin manifesti" romanını ədəbiyyatda insana münasibətin həmin dövrdəki manifesti kimi man aktuallığını itirməyən hekayələrinin, romanlarının əhəmiyyətini diqqətə çatdırıb. Bildirib ki, Mir Cəlal Paşayevin böyük zəhmətinin bəhrəsi olan "Füzuli sənətkarlığı", "XX əsr Azərbaycan ədəbiyyatı", "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "Ədəbiyyatşünaslığın əsasları" adlı fundamental əsərləri ədəbiyyatşünaslıq elminin qiymətli mənbələrindəndir.

Diqqətə çatdırılıb ki, "Azərbaycanda ədəbi məktəblər (1905-1917)" əsərində isə Mir Cəlal Paşayev XX əsrin əvvəllərində inqilabi-demokratik meyillərlə əlaqədar baş verən ictimai-siyasi hadisələr kontekstində Azərbaycanda realizm, romantizm ədəbi məktəbləri, maarifçi-didaktik yazıçılar və xırda məişət dramları haqqında tədqiqatlar aparıb, əhatəli elmi nəticələr əldə edib. Bu əsər Azərbaycanda ədəbi məktəblər haqqında ən ciddi sistemləşdirilmiş və ümumiləşdirilmiş nəzəri bir tədqiqatdır.

Akademik bildirib ki, ədibin 1967-ci ildə yazdığı "Cəlil Məmmədquluzadənin realizmi" əsəri Azərbaycan molla nəsrəddinşünaslığında ğunu qeyd edib. Bildirilib ki, Mir Cəlal ədəbiyyat nəzəriyyəçisi ilə yanaşı, həm də ədəbiyyat tarixçisidir. Onun ədəbi tənqid sahəsindəki xidmətləri də böyükdür.

İ.Həbibbəyli müstəqillik dövründə Mir Cəlal Paşayevin ədəbi irsinin yenidən təhlil edilərək gələcək nəsillərə çatdırılmasının önəmini vurğulayıb.

Konfransda filologiya elmləri doktoru, professor Şirindil Alışanlı "XX əsr ədəbiyyatının Mir Cəlal fenomeni", filologiya elmləri doktoru, professor Bədirxan Əhmədov "Mir Cəlal nəsrində bədii yumor" və filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı "Mir Cəlal Paşayevin elmi irsi" mövzularında məruzə ilə çıxış ediblər.

Sonda alimin oğlu, "ADA" Universitetinin rektoru, professor Hafiz Paşayev atası ilə bağlı xatirələrini bölüşüb. Bildirilib ki, Mir Cəlal azərbaycançılığı sovet dövrünün çətin vaxtlarında əsərlərində yaşadıb. Hafiz Paşayev tədbirin təşkilinə görə Ədəbiyyat İnstitutuna təşəkkürünü bildirib.

AZƏRTAC

*Üsamə əl-Abd:*

# Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycan böyük uğurlara nail olub

**Misir-Azərbaycan Parlamentlərarası dostluq qrupunun yaradılması ölkələrimiz üçün əlamətdar hadisədir və dövlətlərimiz arasında ənənəvi dostluq əlaqələrinin inkişafında böyük əhəmiyyət kəsb edir. Bu sözləri Misir Nümayəndələr Palatasının Din və Vəqflər İşləri Komitəsinin sədri, Misir-Azərbaycan Parlamentlərarası dostluq qrupunun sədri, professor Üsamə əl-Abd AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində söyləyib.**

Onun sözlərinə görə, Misir parlamentinin sədri Əli Abdel Aal Azərbaycan ilə dostluq qrupunun yaradılması barədə sərəncam imzalayıb. Dostluq qrupu qarşısına iki qardaş ölkə arasında ikitərəfli münasibətləri möhkəmləndirmək vəzifəsi qoyub. O deyib: "Bu qrupun məqsədi ölkələrimizin parlamentləri arasında əməkdaşlığı fəallaşdırmaq, iki qardaş ölkə və xalq arasında münasibətləri möhkəmləndirməkdir".

Misir ilə Azərbaycan arasında münasibətlərin dərin tarixi köklərinin olduğunu vurğulayan Üsamə əl-Abd deyib: "Ölkələrimiz arasında münasibətlər çox möhkəmdir və yüksək səviyyədədir. Azərbaycan-Misir hökumətlərarası birgə komissiyasının bu ilin fevralında Misirdə keçirilən iclası və Misir Prezidenti Əbdülfəttah əs-Sisinin Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayevi qəbul etməsi əməkdaşlığımıza yeni təkan verib".

Üsamə əl-Abd daha sonra qeyd edib ki, Misirlə Azərbaycan arasında ikitərəfli münasibətləri və əməkdaşlığı möhkəmləndirmək üçün qarşılıqlı səfərlər, deputatlar arasında görüşlər təşkil etmək, habelə iki ölkənin nazirlikləri, xüsusən iqtisadiyyat və turizm nazirlikləri arasında əlaqələri möhkəmləndirmək lazımdır. O deyib: "Əminəm ki, Azərbaycan-Misir münasibətləri və əməkdaşlığı ölkələrimizin müdrik rəhbərləri sayəsində daha da möhkəmlənəcək və yüksələn xətt üzrə inkişaf edəcək".



Misir-Azərbaycan Parlamentlərarası dostluq qrupunun sədri xüsusi vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan son illər böyük uğurlar əldə edib və yüksək sürətlə inkişaf etməkdədir.

Sonda Üsamə əl-Abd Azərbaycan xalqını Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə Misir parlamenti və Parlamentlərarası dostluq qrupu adından təbrik edib və qardaş Azərbaycana daha böyük inkişaf və firavanlıq diləyib.

AZƏRTAC

# ABŞ-ın Nyu-Meksika ştatının Santa Fe şəhərində 28 may Azərbaycan Milli Günü elan edilib

**ABŞ-ın Nyu-Meksiko ştatının paytaxtı Santa Fe şəhəri 2018-ci il mayın 28-ni Azərbaycan Milli Günü elan edib.**

Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan AZƏRTAC-a bildirilib ki, bununla bağlı şəhər meri Alan Veber tərəfindən müvafiq bəyannamə imzalanıb.




Azərbaycanın Los-Ancelesdəki baş konsulluğuna göndərilmiş bəyannamədə Azərbaycan xalqının müsəlman dünyasında ilk dünyəvi və demokratik respublika yaratdığı, həmin respublikanın qısa müddətdə çoxlu mütərəqqi islahatlara imza atdığı, nəinki müsəlman dünyasında ilk dəfə, eləcə də dövrün bir sıra qabaqcıl dövlətlərindən də öncə qadınlara səsvermə hüququ verdiyi vurğulanır. Həmçinin bu respublikanın ABŞ və digər demokratik dövlətlər tərəfindən tanındığı qeyd olunur.

Bəyannamədə Azərbaycanın 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra ABŞ-ın ölkəmizi tanıyan və onunla diplomatik münasibətlər quran ilk dövlətlərdən biri olduğu bildirilir. Ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra öz suverenliyini və müstəqilliyini gücləndirdiyi, dünyanın ən sürətlə inkişaf edən və çağdaşlaşan dövlətlərindən birinə çevrildiyi, bu gün regionun ən böyük iqtisadiyyata malik ölkəsi və ABŞ-ın Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşı olduğu vurğulanır.

Sənəddə, həmçinin qeyd olunur ki, Los-Ancelesdəki baş konsulluğu vasitəsilə Azərbaycan Nyu-Meksiko ştatı ilə son illərdə güclü əlaqələr qurub.

Bəyannamənin sonunda 28 may tarixi Santa Fe şəhərində Azərbaycan Milli Günü elan edilir.

AZƏRTAC

*Nazir:*

# "Aqrolizinq"lə fermer və sahibkarlar arasındakı ünsiyyət qarşılıqlı dialoq üzərində qurulmalıdır"

**Mayın 11-də Kənd Təsərrüfatı Nazirliyində nazir İnam Kərimov və "Aqrolizinq" ASC-nin regional nümayəndəliklərinin iştirakı ilə toplantı keçirilib.**



"Fermerlərlə ən çox təmasda olan və onları dinləyən "Aqrolizinq"dir. Onlar idarəçiliyi düzgün qurmalı, fəaliyyətləri çevik və operativ olmalıdır. Pambıq və taxıl məhsulları ölkəmiz üçün prioritet sahələrdir və onların vaxtında və itkisiz yığılması məsuliyyəti məhz "Aqrolizinq"in üzərinə düşür. "Aqrolizinq"lə fermer və sahibkarlar arasındakı ünsiyyət qarşılıqlı dialoq üzərində qurulmalıdır. Bunlar bizim əsas fəaliyyət prinsiplərimizdir", - deyə nazir toplantını açıb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, toplantıda nazir taxıl biçini kampaniyası başlamazdan əvvəl "Aqrolizinq" ASC-nin qarşısına qoyulan əsas vəzifələri - mövcud texnika mövsümlə bağlı tam işlək vəziyyətdə və taxıl yığımı kampaniyası səmərəli təşkil olunmalı, kombaynların dislokasiyası müəyyən edilməli, tarlada texnika sürtkü yağları və yanacaqla təmin olunmalı, bitkiləri zərərvericilərdən qorumaq üçün dövri mətbuatda mütəmadi olaraq maarifləndirici verilişlər hazırlanmalı və maliyyə nizam-intizamına, şəffaflığa və dövlət vəsaitinə ciddi nəzarət olunmasını toplantı iştirakçılarının nəzərinə çatdırıb.

Sonda nazir İnam Kərimov "Arqolizinq" ASC-yə və onun regional nümayəndəliklərinə öz tapşırıq və tövsiyələrini verib.

**AZƏRTAC**

# Azərbaycan-ABŞ münasibətlərinin inkişaf perspektivləri müzakirə olunub

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ABŞ-ın Ceymstaun Fondunun prezidenti Qlen Hovardın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan və ABŞ arasında ikitərəfli münasibətlərin inkişaf tarixi və perspektivləri barəsində ətraflı fikir mübadiləsi aparılıb. Həmçinin regional və beynəlxalq gündəlikdə duran məsələlər müzakirə olunub.

Nazir Elmar Məmmədyarov Azərbaycanın enerji strategiyası, TANAP/TAP layihələrinin icrası və Avropanın enerji təhlükəsizliyində rolu, beynəlxalq terrorizmə qarşı mübarizədə ABŞ ilə əməkdaşlığı, ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən nəqliyyat layihələri barədə məlumat verib. Həmçinin Əfqanıstanda Qətiyyətli dəstək əməliyyatında ölkəmizin iştirakı və NATO-ya üzv dövlətlərə, o cümlədən ABŞ-a Əfqanıstan əməliyyatı üçün göstərilən tranzit və logistika dəstəyi barədə danışıb.

Söhbət zamanı, eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında fikir mübadiləsi aparılıb. Nazir Elmar Məmmədyarov bildirib ki, Ermənistanın Azərbaycana qarşı təcavüz və işğalının davam etməsi və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu regional sülh və təhlükəsizlik üçün başlıca təhdiddir.

**AZƏRTAC**

# Rumıniyanın dini məsələlər üzrə dövlət katibi Qafqaz Müsəlmanları İdarəsində olub

**Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. Azərbaycanda dinindən, dilindən, milliyyətindən, irqindən asılı olmayaraq hər kəs dostluq, qardaşlıq, mehribanlıq şəraitində yaşayır və dövlətin qayğısını hiss edir.**



AZƏRTAC xəbər verir ki, bu sözləri Rumıniyanın dini məsələlər üzrə dövlət katibi Viktor Opaskinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə deyib.

Bu günlərdə dünya azərbaycanlılarının iki mühüm hadisəni - ümummilli lider Heydər Əliyevin 95, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileylərini qeyd etdiklərini deyən A.Paşazadə bildirib ki, xalqımız, dövlətimiz qazandığı böyük uğurlara ulu öndər Heydər Əliyevin dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq vətəndaşlarımızı milli birlik, mənəvi vəhdət ideyaları ətrafında bir araya gətirən azərbaycançılıq məfkurəsi sayəsində imza atıb.

QMİ sədri deyib ki, Azərbaycan multikulturalizm, tolerantlıq mühitinin təşəkkül tapmasına, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qurulmasına, İslam mədəniyyətinin dünyada təbliğinə böyük töhfələr verib. Ölkəmizdə müsəlmanlar, pravoslavlar, katoliklər, yəhudilər və digər din mənsubları dostluq, qardaşlıq şəraitində yaşayır, dövlətin diqqət və himayəsindən yararlanırlar. Azərbaycanda məzhəblərarası həmrəyliyin nadir nümunəsi mövcuddur. Şeyxülislam bildirib ki, dünyada dini və milli zəmində ekstremizm, ksenofobiya, islamofobiya, radikalizm, terrorizm təzahürlərinin tüğyan etdiyi, miqrant böhranının yaşandığı bir dövrdə Prezident İlham Əliyev xalqımızın ənənəvi milli, tarixi irsinə söykənərək qlobal miqyasda ümumbəşəri ideyaların carçısı kimi çıxış edir. Müqəddəs dinimizin sülhsevər mahiyyətinin dünya miqyasında təbliği istiqamətində əməli səylər göstərən Prezident İlham Əliyevin "İslam Həmrəyliyi İli" ideyası yalnız müsəlman dünyası daxilində deyil, İslam aləmi ilə digər dinlər arasında həmrəyliyin harmoniyasını ehtiva edir.

Azərbaycandakı multikultural və tolerant mühiti yüksək qiymətləndirən Viktor Opaski Azərbaycan və Rumıniya xalqlarının oxşar taleləri yaşadıqlarını deyib. O, Rumıniyanın da keçmiş SSRİ dövründə dini təzyiqlərə məruz qaldığını qeyd edib. Əlavə edib ki, müstəqilliyini bərpa etdikdən sonra Rumıniya da bir çox sahələrdə olduğu kimi, dini sferada da xeyli irəliləyiş əldə edilib.

**AZƏRTAC**

# Kənd təsərrüfatı naziri Ağdam rayonunda pambıqçılığın inkişafı istiqamətində fermerlərin təkliflərini dinləyib



**Kənd təsərrüfatı naziri İnam Kərimov bölgələrə səfəri çərçivəsində Ağdam rayonunun Quzanlı qəsəbəsində pambıq istehsalçıları ilə görüşüb.**

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, nazir pambıq istehsalçılarına bu sahənin dövlətimizin başçısının birbaşa diqqətində olduğunu deyib, pambıqçılığa çoxşaxəli dövlət dəstəyindən və qarşıya qoyulan hədəflərdən söz açıb. Həmçinin İnam Kərimov pambıqçılıqda məhsuldarlığın artırılması üçün intensiv kənd təsərrüfatı və müasir-innovativ texnologiyaların tətbiqini tövsiyə edib.

Fermer və sahibkarlar da öz növbəsində, rayonda pambıqçılığın inkişafı məqsədilə əlavə artezian quyularının qazılmasını, suvarma şəbəkəsinin inkişaf etdirilməsini, kooperasiyaların yaradılmasını, bu sahədə rayondakı qabaqcıl fermerlərin və xarici təcrübənin öyrənilməsini təklif ediblər.

Sonda nazir İnam Kərimov və fermerlər pambıqçılığın inkişafı ilə bağlı geniş fikir mübadiləsi aparıblar.

**AZƏRTAC**

# Rumıniyanın dini məsələlər üzrə dövlət katibi Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib

**Azərbaycanda səfərdə olan Rumıniyanın dini məsələlər üzrə dövlət katibi Viktor Opaski mayın 11-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyub.**

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanına gedən qonaq Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anıb, məzarları üzərinə gül dəstələri düzüb.

Qonaq Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edib.

**AZƏRTAC**

# Dövlət Miqrasiya Xidmətinin vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığında yeni yanaşmanın tətbiqi müzakirə olunub

**Dövlət Miqrasiya Xidməti (DMX) yanında İctimai Şuranın üzvləri ilə DMX-nin yeni rəisi Vüsal Hüseynovun görüşü keçirilib.**



DMX-dən AZƏRTAC-a bildiriblər ki, görüşdə Şurada təmsil olunan bütün qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.

Xidmətin inzibati binasında təşkil edilən görüşün məqsədi İctimai Şuranın fəaliyyəti ilə tanışlıq və təklifləri dinləmək, Şura üzvləri ilə onun fəaliyyət istiqamətləri, həyata keçirilən tədbirlər barədə ətraflı fikir mübadiləsi aparmaq olub.

Qurumun rəisi Vüsal Hüseynov şəffaflığın prioritet kimi müəyyənləşdirildiyi DMX-nin vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığına yeni yanaşmanın tətbiqinin zəruriliyini diqqətə çatdırıb. O, İctimai Şuranın Xidmətin həyatında və miqrasiya proseslərində əhəmiyyətini qeyd edib. V.Hüseynov vurğulayıb ki, DMX-də göstərilən xidmətlərin həm də olduğu kimi görünməsinin təmin edilməsi üçün əsaslı işlər görüləcək. O, insanların ictimai sektoru özünə yaxın hesab edib ünvanlandığı müraciətlər və digər təkliflərlə bağlı məlumat mübadiləsinin genişləndirilməsinin vacibliyini qeyd edib. Bildirib ki, İctimai Şuranın əsas məqsədlərindən biri ictimaiyyətlə dövlət qurumlarının fəaliyyətinin əlaqələndirilməsi və qərarvermə prosesində iştirakçılıqdır.

İctimai Şuranın sədri Azər Allahverənov, Şura üzvləri Sahib Məmmədov və Kəmalə Məmmədova çıxışlarında Xidmət rəisinin fəaliyyətinin başlanğıcında ictimai iştirakçılığa önəm verməsini təqdir ediblər. İctimaiyyəti düşündürən və Şuraya daxil olan bir sıra məsələlərə dair təkliflər diqqətə çatdırılıb.

İstər institusional, istərsə də qanunvericilik və digər sahələri əhatə edən təklifləri yüksək qiymətləndirən V.Hüseynov gələcək görüşlərdə müzakirə olunan mövzular, sahələr üzrə ixtisaslaşmış qeyri-hökumət təşkilatlarının iştirakının təmin ediləcəyini deyib. Görüşlərin mütəmadi keçiriləcəyini söyləyən Xidmət rəisi əlavə edib ki, İctimai Şuranın üzvləri DMX-nin fəaliyyətinin bütün istiqamətlərində, həmçinin saxlanma mərkəzlərinə baş çəkməkdə sərbəst şəkildə yaxından iştirak etməlidirlər.

**AZƏRTAC**

# Fransanın Alfortvil şəhəri ilə işğal altında olan Laçın şəhəri arasında imzalanmış "xartiya" ləğv edilib

**Fransada fəaliyyət göstərən erməni lobbi dairələri 2013-cü ildən etibarən Azərbaycanın işğal altında olan şəhərləri ilə Fransanın şəhər və qəsəbələri arasında "qardaşlıq" adı altında qeyri-qanuni sənədlər imzalamağa və bu kimi addımları qondarma rejimin təbliği üçün istifadə etməyə çalışır. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Fransadakı səfirliyimizin Fransanın müvafiq qurumları ilə apardığı birgə işin nəticəsində İl-dö-Frans regionunun Alfortvil şəhərinin ölkəmizin Ermənistan tərəfindən işğal olunmuş Laçın şəhəri ilə 2017-ci ildə imzalanmış qeyri-qanuni "xartiya" ləğv edilib ("la Charte d'amitie entre Alfortville et Berdzor").**

Bu barədə AZƏRTAC-a açıqlamasında Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev məlumat verib.

Bildirib ki, 2017-ci ilin iyun ayının 30-da Alfortvil şəhər bələdiyyə şurası tərəfindən qeyri-qanuni "xartiya"nın imzalanması haqqında qərar qəbul edilib. Alfortvil şəhərinin yerləşdiyi Val-dö-Marn departamentinin prefekti tərəfindən Alfortvil bələdiyyə şurasına 30.08.2017-ci il tarixində qərarın könüllü şəkildə ləğv edilməsi üçün iddia (fr.recours gracieux) göndərilmiş, lakin cavabsız qalmışdı.

Bununla əlaqədar olaraq, Val-dö-Marn departamentinin prefekti tərəfindən 2017-ci ilin noyabr ayının 17-də imzalanmış qeyri-qanuni "xartiya"nın inzibati qaydada ləğv edilməsi məqsədilə məhkəməyə müraciət edilib. Buna baxmayaraq, bələdiyyə şurasının qərarı əsasında 2017-ci ilin noyabr ayının 20-də Alfortvil meri tərəfindən qeyri-qanuni "xartiya" imzalanıb.

2018-ci ilin martın 8-də məsələ ilə əlaqədar məhkəmənin ilk iclası keçirilib və dövlət ittihamçısı Fransa yerli özünüidarəetmə orqanları üzrə Ümumi Məcəlləsinin L1115-1 bəndinin (sözügedən qurumlar tərəfindən imzalanmış sazişlərin Fransanın beynəlxalq öhdəlikləri ilə uyğun olmasına dair) pozulması ilə əlaqədar məhkəmə tərəfindən sözügedən "xartiya"nın ləğv edilməsini tələb edib.

Nəticədə, 2018-ci ilin aprel ayının 12-də Alfortvil şəhərinin bələdiyyə şurası, məhkəmənin qərarını gözləmədən, 41 səs lehinə, 1 səs bitərəf olmaqla qeyri-qanuni "xartiya"nın ("la Charte d'amitie entre Alfortville et Berdzor") imzalanmasına dair 2017-ci il 30 iyun tarixli qərarını ləğv etmək məcburiyyətində qalıb. Qeyd edək ki, bələdiyyə şurasının üzvlərindən 7 nəfər erməni əsilli şəxsdir.

Alfortvil şəhərinin meri Mişel Gerşinovitz qərarın ləğv edilməsi ilə əlaqədar qeyd edib ki, "aprelin 12-də təqiblərin qarşısının alınması məqsədilə mən bələdiyyə şurasından qərarın ləğv edilməsini xahiş etdim. Əks halda, bu hökm "artsax diplomatiyasına" ziyan vuracaq bir məhkəmə aktı olacaqdı".

Hikmət Hacıyev deyib: "Biz Val-dö-Marn departamentinin prefektinin, qeyri-qanuni "xartiya"nın ləğv edilməsi məqsədilə məhkəməyə müraciət etməsi qərarını alqışlayır və digər qeyri-qanuni "xartiya"ların ləğv edilməsi məqsədilə, Fransa mərkəzi icra hakimiyyəti orqanları və həmçinin prefektlərin analoji addım atacağını gözləyirik.

Eyni zamanda, Fransa Xarici İşlər Nazirliyini və bu ölkənin digər cavabdeh qurumlarını Fransa yerli özünüidarəetmə orqanları tərəfindən işğal olunmuş ərazilərimizlə bağlı bütün qeyri-qanuni fəaliyyətin, o cümlədən bura qeyri-qanuni səfərlərin təşkil edilməsinin qarşısının alınmasında sərt addımların atılmasına çağırırıq".

**AZƏRTAC**

# Dövlət Komitəsinin sədri qəzalı binalarda məskunlaşmış məcburi köçkünlərlə görüşüb

**Mayın 11-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Bakının Xətai, Binəqədi və Nərimanov rayonlarında bir neçə yataqxana və inzibati binalarda məskunlaşan məcburi köçkünlərlə görüşüb.**



Dövlət Komitəsinin sədri məcburi köçkünlərin yaşadıqları yerlərə baş çəkib, onların problemləri ilə yerində tanış olub.

Prezident İlham Əliyevin hər zaman qaçqın və məcburi köçkünləri diqqətdə saxladığını vurğulayan Dövlət Komitəsinin sədri qeyd edib ki, onların həyat şəraitinin daha da yaxşılaşdırılması yönündə ölkə başçısı tərəfindən davamlı olaraq böyük işlər görülür.

O, Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən məcburi köçkünlər üçün müasir tipli binaların tikildiyini, yaxın zamanlarda qəzalı binalarda məskunlaşan məcburi köçkünlərin problemlərinin həlli istiqamətində addımlar atılacağını diqqətə çatdırıb.

Bildirib ki, öncə qəzalı binalarda, ağır şəraitdə yaşayan məcburi köçkünlərin problemləri mərhələli şəkildə həll ediləcək.

R.Rzayev digər rayonlarda da məcburi köçkünlərlə bu cür görüşlərin keçirilməsinin nəzərdə tutulduğunu vurğulayıb.

Görüşdə Dövlət Komitəsinin sədr müavinləri, Nərimanov, Binəqədi və Xətai Rayon İcra hakimiyyətlərinin nümayəndələri iştirak ediblər.

# "Azəraeronaviqasiya" ən müasir aeronaviqasiya innovasiya sistemi "AIM"i tətbiq etmişdir

**"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti yanında "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsi "AIM" aeronaviqasiya məlumatının idarəetmə inteqrasiya sisteminin tətbiqi prosesini başa çatdırmışdır. Tam inteqrasiya olunan bu sistem bütün digər postsovet məkanı ölkələri arasında ilk dəfə tətbiq olunur.**



Hava Hərəkətinin idarə edilməsi sahəsində Qlobal Konsepsiyaya müvafiq olaraq "AIM" ICAO yol xəritəsinin bir hissəsi olaraq yeni aeronaviqasiya məlumatının idarəetmə sistemi SWİM - System Wide Information Management konsepsiyasını əks etdirir. SWİM aviasiya, aeroport, uçuş, meteoroloji məlumat, eləcə də müşahidə, hava gəmilərinin axınının və hava məkanının buraxılış qabiliyyətinin məlumatı mübadiləsinə köməklik edir. Bu cür yanaşma hava hərəkətinin təşkil edilməsində bütün məlumat tədarükçüləri və istifadəçiləri arasında birbaşa mübadiləni təmin edir. "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsinin direktoru Fərxan Quliyev qeyd etmişdir ki, müasir mülki aviasiya vaxtında təqdim edilən düzgün, dəqiq aeronaviqasiya məlumatı olmadan mümkün deyil. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəstəyi sayəsində "Azərbaycan Hava Yolları" bu gün rəqəmsal şəkildə aeronaviqasiya məlumatının ilkin mənbədən son istifadəçilərə çatdırılma axınının fasiləsiz təşkil edilməsinə imkan verən qabaqcıl texnologiyalar tətbiq edir. Bu, öz növbəsində göstərilən xidmətlərin keyfiyyətini artıracaq, uçuşların təhlükəsizliyinin, müntəzəmliyinin, səmərəliyi məlumatının təmin edilməsində vacib olan məlumatın işlənib hazırlanması prosesini sürətləndirəcək.

"Aeronaviqasiya" bu sahədə son texnologiyaların tətbiqi üzrə təcrübə mübadiləsi məqsədilə digər hava hərəkəti idarəetmə mərkəzləri ilə əməkdaşlıq etməyə hazırdır.

**"Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidməti.**

# XİN: Ermənistanın yeni hakimiyyəti əvvəlki rejimin siyasətini davam etdirəcəksə, yəqin ki, onu da eyni aqibət gözləyir

**Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibinin açıqlamasına münasibət bildirib.**

AZƏRTAC xəbər verir ki, Hikmət Hacıyev əvvəllər səsi çıxmayan və Sarkisyan rejiminin ünsürü olan bu şəxsin Ermənistandakı yeni siyasi hakimiyyətdə vəzifə tapmaq üçün yəqin ki, ekstra fəallıq göstərməyə çalışdığını söyləyib. "Hələ də fərqində deyil ki, onun qulluq etdiyi Sarkisyan rejiminin siyasəti, o cümlədən Azərbaycana qarşı təcavüz və işğalın davam etməsi Ermənistanın bugünkü böhranının əsas səbəbidir. Ermənistanın yeni hakimiyyəti əvvəlki rejimin siyasətini davam etdirəcəksə, yəqin ki, onu da eyni aqibət gözləyir", - deyə Hikmət Hacıyev qeyd edib.

Azərbaycan XİN-in sözçüsü bildirib ki, ümummilli lider Heydər Əliyev Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısını aldı və Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında uğurlu idarəçilik modeli əsasında Azərbaycan regionun aparıcı dövlətidir.

**AZƏRTAC**

# Məktəb mənim həyatımdır

Haqqında söhbət açacağımız Sevinc Sədullayeva bir vaxtlar şagirdi olduğu məktəbin indi direktorudur. 21 illik əmək fəaliyyəti ilə çalışdığı rayonun ictimaiyyəti arasında nüfuz, hörmət sahibidir. Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatının sədr müavinidir. Bu yaxınlarda ölkə Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalına layiq görülmüş fəal qadınlardan biridir.

**Sevinc Sədullayeva** Xaçmaz şəhərində doğulub boya-başa çatıb. Ali təhsilli sinif müəllimidir. Əmək fəaliyyətinə orta təhsil aldığı Ç.Abdullayev adına Xaçmaz şəhər 2 nömrəli tam orta məktəbində peşə və gənc texniklər mərkəzinin dərnək rəhbəri kimi başlayıb. Bir neçə il sinif müəllimi kimi çalışıb. Bacarığı, yüksək təşkilatçılıq qabiliyyətinə görə irəli çəkilib. Bir müddət təlim-tərbiyə işləri üzrə direktor müavini işləyib. 2015-ci ildən isə həmin məktəbə direktor təyin olunub.

Çalışdığı məktəbdə min nəfərə yaxın şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 66 nəfər müəllim məşğuldur. Direktor işlədiyi qısa müddət ərzində məktəbin ab-havası, tədrisin təşkili vəziyyəti tamamilə dəyişib. Sevinc müəllimin səyi ilə məktəbdə ciddi nizam-intizam yaradılıb. Davamiyyət ön planda olub. Şagirdlər vahid məktəbli formasına keçib. Müəllimlərin geyimi də məktəbin qaydalarına uyğunlaşdırılıb. Atılan hər bir addım nəticədə tədrisin keyfiyyətinə, təlim-tərbiyənin yüksəldilməsinə xidmət edib. Uğurlar da göz qabağındadır. Təkcə bir fakta diqqət yetirək. Əvvəlki illərdə məktəbin məzunlarından ali məktəblərə ildə cəmi 6-7 nəfər qəbul olunduğu halda, ötən il bu rəqəm ikiqat artıb. Orta ixtisas məktəblərinə qəbul olunanların sayı da nəzərəçarpacaq dərəcədə yüksəlib. Hazırda bu məktəb Təhsil Nazirliyi tərəfindən pilot layihənin uğurla həyata keçirildiyi nümunəvi tədris müəssisəsidir. Layihəyə uyğun olaraq məktəbdə 2016-2017-ci dərs ilində 10-culardan ibarət texniki-təmayüllü sinif təşkil olunub. Bununla şagirdlərin repetitor yanına getmələrinə son qoyulub. Artıq şagirdlər lazımi bilikləri elə məktəbin özündə, müəllimlərindən alırlar. Layihə səmərəli olduğundan 9-cu siniflərdə də həmin layihənin icrası üçün iş aparılır.

Sevinc müəllim deyir ki, məktəbdə tədrisin keyfiyyətini yüksəltmək bir nömrəli vəzifəmizdir. Təhsil nazirinin 28 avqust 2017-ci il tarixli əmrinə əsasən 2017-2018-ci dərs ili "Ümumi təhsildə keyfiyyət ili" elan olunmuşdur. Qarşımıza ümumtəhsilin səmərəliliyi və effektliliyinin yüksəldilməsi, şagirdlərin dövrün çağırışlarına uyğun keyfiyyətli təhsillə əhatə olunması, onların cəmiyyət üçün layiqli şəxsiyyət, vətənpərvər ruhlu yetkin vətəndaş kimi tərbiyə edilməsi mühüm vəzifə kimi qoyulmuşdur. Məktəbimizin pedaqoji kollektivi bu vəzifəni layiqincə yerinə yetirmək üçün bütün səy və bacarığını sərf edir. "Təhsildə keyfiyyət ili" çərçivəsində görüləcək işlərə dair konkret iş planı hazırlanmış, hazırda bu tədbirləri müvəffəqiyyətlə həyata keçiririk. Pedaqoji kollektivimiz öz işinə son dərəcə tələbkarlıqla yanaşır. 2016-2017-ci tədris ilinin yekunları tərəfimizdən çox diqqətlə təhlil olunmuş, buraxılmış səhvlərin aradan qaldırılması üçün əməli tədbirlər görülmüşdür. Ali məktəblərə qəbulun son bir neçə il ərzində nəticələri ciddi müzakirə olunmuş, fənn müəllimlərinin məsuliyyəti daha da artırılmışdır. Fəaliyyətimdə hər kəsə fərdi yanaşmağa üstünlük verirəm.



Məsuliyyətli və şərəfli müəllim peşəsinə sevgim sonsuzdur. Məktəb mənim ikinci həyatımdır. Şagirdləri çox sevirəm. İstedadlı, əla oxuyan şagirdlər gözümün nurudur. Onlara xüsusi qayğı ilə yanaşıram. Müəllim kollektivi də mənə bir o qədər doğmadır. Mən bu kollektivin içindən yetişmişəm. Burada mənim doğma müəllimlərim də var. Qazandığımız nailiyyətlər birgə əməyin məhsuludur. Fürsətdən istifadə edib mənim əməyimə verdiyi yüksək qiymətə görə çox hörmətli Prezidentimizə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

S.Sədullayeva rayonun ictimai-siyasi həyatında xüsusi fəallığı ilə seçilir. O, bir müddət YAP rayon qadınlar şurasının sədri kimi çalışıb. Fəal işinə görə ona daha bir etimad göstərilib. YAP Xaçmaz rayon təşkilatının sədr müavini seçilib. O, YAP V və VI qurultaylarının nümayəndəsi olub. Onu tez-tez rayonda keçirilən mötəbər tədbirlərin tribunasında görmək olar. Rəhbərlik etdiyi məktəbdə fəaliyyət göstərən Heydər Əliyev İdeoloji Mərkəzinin çox geniş fəaliyyəti var. Mərkəz ulu öndərin mənalı həyat fəaliyyətinin, onun ideyalarının təbliği sahəsində çox böyük iş aparır. Hazırda burada Heydər Əliyevin anadan olmasının 95 illiyinə hazırlıq görülür.

Onunla cəmi bir saat həmsöhbət olduq. Öz peşəsi, ictimai fəaliyyəti haqqında danışdıqları, cəmiyyətdə gedən proseslərə həssas münasibəti, mülahizə və düşüncələri olduqca maraqlı idi. Bizi ən çox məmnun edən isə Sevinc müəllimin bir ziyalı, bir təhsil öncülü kimi danışdıqları ilə gördüyü işlərin bir-birini tamamlamasıdır.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**

# GƏLƏCƏK NƏSLİN TƏHLÜKƏSİZLİYİNİ TƏMİN EDƏK

**10 may 2018-ci il tarixində 257 nömrəli tam orta məktəbdə Fövqəladə Hallar Nazirliyinin (FHN) Xətai Rayon Fövqəladə Hallar və Mülki Müdafiə Şöbəsinin birgə təşkilatçılığı ilə maarifləndirici tədbir həyata keçirilib.**





Tədbirdə təhsil müəssisəsinin şagirdləri ilə "Məişətdə qaz cihazlarından istifadə edərkən təhlükəsizliyi necə təmin etməli?" və "Müxtəlif şənliklərdə yanğın və texniki təhlükəsizlik qaydalarının bütün tələblərinə ciddi əməl olunmalıdır", "Yanğın hadisəsi zamanı necə davranmalı?" mövzularında söhbət aparılıb.

FHN-in Baş Əməliyyat İdarəsinin şöbə rəisi polkovnik-leytenant Babək Həsənov, mayor Yalçın Əsgərov, Xətai Rayon Fövqəladə Hallar və Mülki Müdafiə Şöbəsinin rəisi polkovnik-leytenant Rafail Musayev, FHN Dövlət Yanğın Nəzarəti Xidmətinin 3-cü Ərazi Dövlət Yanğın Nəzarət İdarəsinin Dövlət Yanğın Nəzarəti Şöbəsinin böyük inspektoru, daxili xidmət mayoru Xanlar Mahmudov, inspektor, daxili xidmət kapitanı Nicat Şükürov mülki müdafiə haqqında geniş məlumat veriblər. Qonaqlar qeyd ediblər ki, bu kimi tədbirlərin tez-tez təşkil olunması məktəblilərin mülki müdafiə biliklərinə yiyələnməsinə və mülki müdafiə işinin təkmilləşdirilməsinə kömək olur.

Sonra təhsil müəssisəsinin təxliyə planlarının mərtəbələr üzrə müvafiq qaydalara əməl etməklə düzgün hazırlanmasının, yanğın və texniki təhlükəsizlik tədbirlərinə əməl olunmasına nəzarətin artırılmasının, ehtiyat çıxış qapılarının və zirzəmilərinin daim istifadəyə yararlı vəziyyətdə saxlanılmasının və ilkin yanğınsöndürən vasitələrlə təchiz olunmasının vacibliyi barədə məlumat verilib.

Tədbir zamanı şərti xəbərdarlıq siqnalı, məktəbdə "Yanğın həyəcanı", xilasetmə qrupları tərəfindən şagirdlərin yanğın zonasından təxliyəsi, yanğın zamanı düzgün mövqe tutmaq qaydaları, zərərçəkmişlərə ilk tibbi yardımın göstərilməsi və digər təxirəsalınmaz işlərin vaxtında və düzgün icrası barədə tədbir iştirakçılarına məlumat verilib.

Tədbirin sonunda "Hansı hallarda 112 qaynar xəttə əlaqə saxlamaq lazımdır?", "Təbii qazdan istifadə etdikdə ehtiyatlı olun!", mövzularında hazırlanmış kitab və broşürlər iştirakçılara paylanılıb, "Dəm qazından zəhərlənmə hallarının yaranma səbəbləri"nə dair söhbətlər aparılıb, fərdi mühafizə vasitələri və onlardan düzgün istifadə qaydaları əyani şəkildə göstərilib, eləcə də şagirdlərin sualları məruzəçilər tərəfindən cavablandırılıb.

Baş verə biləcək yanğın hadisələrinin qarşısını almaq məqsədilə FHN-in əməkdaşları tərəfindən məktəbin inzibati və yardımçı binalarının elektrik təsərrüfatına baxış keçirilib.

**Ülvi QARAYEV,**
**"Respublika".**

# "Heydər Əliyev: Deyilən söz yadigardır" aforizmlər kitabının təqdimat mərasimi

Ukraynanın elm və mədəniyyət xadimləri, Azərbaycanın Ukraynadakı səfirliyinin diplomatları, gənclər və tələbələr Kiyev şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Sosial Elmlər İnstitutunun qarşısına gələrək, dahi öndərin büstü önünə tər çiçəklər qoyublar.

Sonra Ukrayna Regionlararası Heyətin İdarəolunması Akademiyasında ulu öndərin kəlamlarını özündə əks etdirən "Deyilən söz yadigardır" yaddaş kitabçası Ukraynanın elmi ictimaiyyətinə və tələbələrə təqdim olunub. Ulu öndərin dünyanın siyasi arenasında bəşəri təfəkkür sahibi kimi şöhrət qazandığını deyən Regionlararası Heyətin İdarəolunması Akademiyasının rektoru Mikola Kurko dahi Heydər Əliyevin vaxtı ilə söylədiyi kəlamların tarixin yaddaşına dahiyanə deyilmiş müdriklik təcəssümü kimi daxil olduğunu vurğulayıb. Rektor deyib:

—Heydər Əliyev tarixə bir çox sahələrlə yanaşı, həm də son dərəcə dahiyanə deyilmiş müdrik kəlamların müəllifi kimi düşüb. Mənim diqqətimi bu kitabın ilk səhifəsində yazılmış "Azərbaycan dünyaya günəş kimi doğacaq" kəlamı daha çox cəlb etdi. Həqiqətən də, Azərbaycan bu gün Heydər Əliyevin vaxtilə dediyi kimi, dünyanın ən parlayan ölkələrindən birinə çevrilib. Mən çox şadam ki, rəhbərlik etdiyim akademiyada Heydər Əliyev kimi dahi bir şəxsiyyətin adına İnstitut fəaliyyət göstərir.

Tədbirdə Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev çıxış edərək, ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin qurulmasında və inkişaf etdirilməsində göstərdiyi misilsiz xidmətlərdən danışıb. Onun dövlət idarəçilik strategiyasında, multikultralizmin, dini tolerantlığın, xalqlar dostluğunun prioritet təşkil etdiyini bildirən səfir ulu öndərin vaxtilə dediyi müdrik kəlamların Ukrayna dilində dərc olunmasını indiki və gələcək nəsillərə ən dəyərli töhfə kimi qiymətləndirib. Tədbirdə çıxış edən siyasi elmlər doktoru Nikolay Qolovatıy Heydər Əliyevin 20-ci və 21-ci əsrin siyasi arenasında fenomenal yaddaşı, dəmir iradəsi, müdrikliyi və uzaqgörənliyi ilə böyük şöhrət qazanmış dahi şəxsiyyət olduğunu vurğulayıb. Poltava Vilayət şurasının deputatı Fəxrəddin Muxtarov dünya azərbaycanlılarının vahid dövlətçilik məfkurəsi ətrafında birləşməsində və milli kimliyimizin qorunmasında ulu öndərin tarixi xidmətlərindən bəhs edib.

Tədbirdə akademiyanın müəllimləri və tələbələri çıxış edərək Heydər Əliyevin siyasi irsinin öyrənilməsinin vacibliyini vurğulayıblar. Tədbirdə Azərbaycan və Ukrayna televiziyalarının birgə istehsalı olan "Heydər Əliyev 2 əsrin fenomeni" filmi nümayiş etdirilib.

Azərbaycan səfirliyinin təşəbbüsü və Poltava Vilayət Şurasının deputatı Fəxrəddin Muxtarovun dəstəyi ilə dərc olunan kitabın tərtibçiləri Azərbaycan Televiziyasının Ukrayna və Şərqi Avropa bürosunun rəhbəri Möhsüm Qədiroğlu və Azərbaycan Yazıçılar Birliyinin Tərcümə Mərkəzinin rəhbəri Səlim Babullaoğludur.

**Qədir ASLAN,**
**"Respublika".**

# Əhalinin sağlamlığı diqqət mərkəzindədir

Çox vaxt deyirik ki, hər bir insanın sağlamlığı öz əlindədir. Bu, həqiqətən belədir. Lakin bəzən işin çoxluğundan, hətta səhlənkarlıqdan, başqa bir vaxt isə imkansızlıqdan həkimə müraciət etmir, vaxtlı-vaxtında müayinədən keçməyi arxa plana çəkirik. Halbuki tibbi müayinə sağlamlığın durumunu müəyyən edən başlıca şərtdir. Artıq bir neçə ildir ki, dövlət başçımız cənab İlham Əliyevin şəxsi təşəbbüsü ilə ölkəmizdə vətəndaşların pulsuz tibbi müayinəsi həyata keçirilir. Tibb ocaqlarında, səhiyyə müəssisələrində bu ümumxalq işinə əvvəlcədən ciddi hazırlıq görülür, tibbi personal vacib tədbirin mütəşəkkil keçirilməsinə cəlb olunur. Fevral ayının 15-dən start götürən tibbi müayinə ölkəmizdə uğurla davam etməkdədir. Sağlamlıq ocaqlarının rəhbərləri ilə görüşüb söhbət edərkən, eyni zamanda şəxsi müşahidələrimiz əsasında bu qənaətə gəldik.

**Fərhad Səfərov, Şirvan Mərkəzi Şəhər Xəstəxanasının baş həkimi:**

- Şirvan respublikamızın iri sənaye şəhərlərindən biridir. Şəhərdə 90 min nəfərə yaxın əhali yaşayır. Əhalinin sağlamlığına göstərilən qayğı və diqqət daima yüksək olmuşdur. Müstəqillik illərində dövlət başçımız cənab İlham Əliyevin şəxsi təşəbbüsü ilə bütün regionlarda olduğu kimi, Şirvanda da müasir tələblərə cavab verən sağlamlıq ocaqlarının sayı artmış, tibb müəssisələri ən yeni avadanlıqlarla təmin olunmuşdur. Cənab Prezidentin göstərişi ilə hər il keçirilən əhalinin pulsuz tibbi müayinəsi ölkə vətəndaşlarının sağlamlığına göstərilən qayğının parlaq nümunəsidir. Təbii ki, bu mühüm və həyat əhəmiyyətli tədbirin icrası yerlərdə yüksək səviyyədə təşkil olunmalıdır. Şirvan şəhərinin səhiyyə işçiləri tibbi müayinənin səmərəli olması üçün əllərindən gələni əsirgəmirlər. İndiyə kimi 56 min nəfərdən çox şəhər sakini müayinədən keçib. Onlardan 48.604 nəfərində sağlamlıq durumu normaldır. 6819 nəfər ambulator, 507 nəfər stasionar müalicəyə cəlb olunmuş, 85 nəfər ixtisaslaşmış tibb müəssisəsinə göndərilmiş, 124 nəfərin üzərində cərrahiyyə əməliyyatı aparılmışdır. Tibbi müayinə davam edir.

**Beydulla Qarayev, Hacıqabul Mərkəzi Rayon Xəstəxanasının baş həkimi:**

- Hacıqabul rayonu respublikamızın mərkəzi aran hissəsində yerləşir. Təbii ki, yayı isti keçən regionda müəyyən riskli xəstəliklərin də fəsadlar törədə bilmə ehtimalları az deyil. Odur ki, rayon əhalisinin dayanıqlı şəkildə tibbi müayinədən keçməsi həyati əhəmiyyət kəsb edir. Dərin minnətdarlıq hissi ilə deməliyəm ki, ölkə Prezidentinin şəxsi təşəbbüsü ilə vətəndaşların heç bir ödəniş aparmadan tibbi müayinədən keçməsi xəstəliklərin vaxtında müəyyən edilib aradan qaldırılmasına böyük köməklik edir. Hər il fevral ayının ortalarından başlayaraq əhali tibbi müayinədə mütəşəkkilliklə iştirak edir. Rayonda indiyə kimi 41.115 nəfər tibbi müayinədən keçib. Onlardan 33.582 nəfərin sağlamlığında problem olmayıb. 1407 nəfər ambulator, 202 nəfər stasionar müalicəyə cəlb olunub. 85 nəfər ixtisaslaşmış tibb müəssisəsinə göndərilib. 47 nəfərin üzərində cərrahiyyə əməliyyatı aparılıb. 31 yaşayış məntəqəsinin 14-də tibbi müayinə başa çatdırılıb.

**Məhəmməd Musayev, Kürdəmir Mərkəzi Rayon Xəstəxanasının baş həkimi:**

- Son illərdə ölkəmizin hər yerində olduğu kimi, Kürdəmir rayonunda da səhiyyə xidmətinin inkişafına yüksək səviyyədə qayğı və diqqət göstərilir. Bir neçə il bundan əvvəl tikilib istifadəyə verilmiş şəhər poliklinikası, əsaslı təmir olunan mərkəzi xəstəxana müasir tibbi avadanlıqlarla təmin olunmuş, vətəndaşların müayinə və müalicəsi üçün burada hər cür şərait yaradılmışdır. Tibbi müayinə hər il olduğu kimi bu il də mütəşəkkil şəkildə həyata keçirilir. Rayonun 115.594 nəfər əhalisinin 34.850 nəfəri uşaqlardır. Qalan sakinlərin hamısı tibbi müayinəyə cəlb olunub. Qısa müddət ərzində 70 min nəfər tibbi müayinədən keçib. Onlardan 6027 nəfəri ambulator, 219 nəfəri stasionarda müalicə olunur, 115 nəfər müalicə üçün ixtisaslaşmış tibb müəssisəsinə göndərilib.

Tibbi müayinə 8 məntəqədə aparılır. Mərkəzi poliklinika, mərkəzi xəstəxana, uşaq poliklinikası ilə yanaşı 2 kənd xəstəxanasında, 4 həkim məntəqəsində əhalinin pulsuz müayinəsi davam etdirilir.

**Hüseyn Əhmədov, Cəbrayıl Mərkəzi Rayon Xəstəxanasının baş həkimi:**

- Cəbrayıl rayonunun sakinləri bildiyiniz kimi respublikanın 55 rayonunda müvəqqəti məskunlaşıb. Onlar məskunlaşdıqları rayonlarda da tibbi müayinədən keçirlər və bu işdə heç bir problem yaranmır. Lakin rayonumuzun bütün infrastrukturu Biləsuvar rayonu ərazisində salınmış qəsəbələrdə yerləşir. Mərkəzi Rayon Xəstəxanası, poliklinika, digər tibbi müəssisələr bu ərazidə fəaliyyət göstərir. 11 qəsəbədə 18.865 nəfər əhali yaşayır. Sakinlər arasında Cəbrayılla yanaşı Füzuli, Zəngilan, Qubadlı, Ağdam, digər rayonlardan olan soydaşlarımız da var. 4636 uşaq istisna edilməklə 14.428 nəfər sakin tibbi müayinədən keçməlidir. İndiyə kimi onlardan 10 min nəfəri bu sağlamlıq tədbirində iştirak edib. 450 nəfərdə xəstəlik aşkar olunub. Ambulator və stasionar müalicəyə cəlb olunanlarla yanaşı xəstələrdən 59 nəfəri Bakı, 64 nəfəri Sabirabad, İmişli, Biləsuvar xəstəxanalarına göndərilib.

**Tofiq HÜSEYN,**
**"Respublika".**

# "Tufan" sərhəd gözətçi gəmisi dənizə endirildi



**Aprel ayının 30-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin baxış keçirdiyi Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində inşa edilmiş S-205 nömrəli "Tufan" tipli sərhəd gözətçi gəmisi may ayının 10-da Xəzər dənizinə endirilmiş və xidmətidöyüş fəaliyyətinə başlamışdır.**

Xəzər dənizində sərhəd təhlükəsizliyinin təmin edilməsi, neft-qaz hasilatı və daşınması infrastrukturunun etibarlı mühafizəsinin təşkili üzrə mühüm vəzifələri yerinə yetirən Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin xidməti-döyüş imkanlarının gücləndirilməsi böyük əhəmiyyət kəsb edir.

Bu tədbirin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin yaradıcısı, Azərbaycan sərhəd mühafizəsi strategiyasının müəllifi dahi öndər Heydər Əliyevin 95 illik yubileyinə təsadüf etməsi bu günü daha da əlamətdar etmişdir.

Heydər Əliyev dövlətçiliyinə hər zaman sadiq olan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında hər bir döyüş tapşırığını şərəflə yerinə yetirməyə hazır olan Azərbaycan sərhədçiləri tərəfindən yeni sərhəd-gözətçi gəmisinin xidməti-döyüş fəaliyyətinə başlaması böyük ruh yüksəkliyi ilə qarşılanmışdır.

**Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzi.**




# "Azərsu" ASC ağacəkmə aksiyası keçirdi



Dövlət başçısının Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair imzaladığı sənədlər və bu sahədə həyata keçirilən layihələr ekoloji sabitliyin qorunmasına töhfələr verməkdədir. Heydər Əliyev Fondunun və İDEA İctimai Birliyinin təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də ölkəmizdə yaşıllıqların artırılmasında, mövcud yaşıllıq sahələrinin qorunmasında mühüm rolu var.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyi ilə əlaqədar "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən ağacəkmə aksiyası keçirilib. Hövsan Aerasiya Stansiyası ərazisində təşkil olunmuş ağacəkmə kampaniyasında müxtəlif növdə 1000-dən çox ağac əkilib, yaşıllıqlar salınıb. Ağacəkmə tədbirində Səhmdar Cəmiyyətin idarə və müəssisələrinin kollektivləri fəal iştirak edib.

"Azərsu" ASC ölkədə ekoloji vəziyyətin yaxşılaşdırılması məsələlərinə xüsusi diqqət yetirir və yaşıllaşdırma tədbirlərinə öz töhfəsini verməkdədir. Yaşıllaşdırma tədbirləri çərçivəsində son illər cəmiyyətin idarə və müəssisələrinin, hidrotexniki qurğularının yerləşdiyi ərazilərdə 450 hektar yaşıllıq sahəsi yaradılıb. 195 minə qədər müxtəlif növ ağac və kol bitkiləri, 570 mindən çox mövsümi gül əkilib.

**"Azərsu" ASC-nin İctimaiyyətlə Əlaqələr Şöbəsi.**

# "Veysəloğlu" Şirkətlər Qrupu "Gələcəyini Qur!" Gəncliyə Dəstək Layihəsinə sponsor oldu

**"Veysəloğlu" Şirkətlər Qrupu özünün Korporativ Sosial Məsuliyyət (KSM) siyasəti çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin dəstəyi ilə reallaşan "Gələcəyini Qur!" Gəncliyə Dəstək Layihəsinə dəstək oldu.**



Şirkətin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri İlham Məmmədovun verdiyi məlumata görə bu il layihənin sponsorlar sırasına "Veysəloğlu" Şirkətlər Qrupu da qoşularaq onlarla şagirdin ali təhsil almaq arzusunu reallaşdırmasına dəstək olacaq. Bu günə qədər layihədən 300-ə yaxın gənc yararlanıb, gənclərin əksəriyyəti hazırda müxtəlif yerli ali təhsil məktəblərində ödənişsiz əsaslar ilə təhsil almaqdadır.

Layihənin əsas məqsədi aztəminatlı ailələrdən olan yüksək bilik və bacarığa malik gənclərin həyatda uğur əldə etmələrinə dəstək və töhfə verməkdir və bununla Azərbaycan cəmiyyətinə yüksək intellekt və etik dəyərlərə malik sağlam düşüncəli gənclər qazandırmaqdır. Layihənin coğrafiyasına Bakının 5 rayonu (Binəqədi, Xətai, Sabunçu, Suraxanı və Qaradağ) və paytaxtdan kənarda yerləşən 5 regionu (Ağdaş, Kürdəmir, Salyan, Ucar və Yevlax) daxildir.

Qeyd edək ki, 5 mərhələli seçim prosesinə ərizə formalarının qiymətləndirilməsi, sınaq imtahanı, gənclərin müsahibə yolu ilə dəyərləndirilməsi, bir aylıq sınaq dərsləri və namizədlərin ailələrinə səfər daxildir.

Layihənin komandası və könüllüləri Bakı şəhərində seçim prosesinin iki mərhələsini tamamlayıblar: layihənin Bakı şəhərində əhatə etdiyi 5 rayonunda (Binəqədi, Xətai, Sabunçu, Suraxanı və Qaradağ) yerləşən 172 məktəbdən ümumilikdə 1533 şagird anket doldurub və sınaq imtahanında iştirak edib. Sınaq imtahanı Binəqədi rayonundan olan məktəblilər üçün 8 aprel, Qaradağ, Sabunçu, Suraxanı və Xətai rayon məktəbliləri üçün isə 29 aprel 2018-ci il tarixində keçirilmişdir.

Layihəyə seçilmiş gənclər ali məktəblərə daxil olmaq üçün bir il ərzində müxtəlif inkişafetdirici tədbirlərdə iştirak edəcəklər. Layihənin növbəti 5-ci ili üçün seçim prosesi cari ilin avqust ayında yekunlaşacaq.

Cari ilin aprel ayından etibarən "Gələcəyini Qur!" Gəncliyə Dəstək Layihəsi növbəti 5-ci ilində iştirak edəcək gənclərin seçimlərinə başlanmışdır.

**Baybala BƏYBALAYEV,**
**"Respublika".**




## ABŞ BİR SIRA ÖLKƏLƏRƏ SANKSİYALAR TƏTBİQ EDİB



ABŞ Rusiya, İran, Şimali Koreya, Çin, Türkiyə və Səudiyyə Ərəbistanına aid müdafiə sənayesi müəssisələrini kütləvi qırğın silahları yaymaqda ittiham edərək, onlara qarşı sanksiyalar tətbiq edib. "APA"-nın Rusiya mətbuatına istinadən verdiyi məlumata görə, sanksiyalar siyahısı ABŞ Dövlət Departamentinin Federal Reyestrinin rəsmi səhifəsində yerləşdirilib. Siyahıda adı çəkilən ölkələrə məxsus 28 şirkət və fiziki şəxsin adları yer alıb.

Məhdudiyyətlərə ABŞ-ın dövlət strukturları tərəfindən bu ölkələrə aid məhsul və xidmətlərin əldə olunması, onlara silah və hərbi texnika satışı, ABŞ tərəfindən həmin ölkələrin dövlət qurumları və şirkətlərinə idxal nəzarətinə daxil olan məhsulların alışına dair lisenziyaların verilməsi, habelə bu ölkələrə istənilən yardımların göstərilməsi daxildir.

Sanksiyaların Rusiyanın Müdafiə Nazirliyinin Mərkəzi Elmi-Tədqiqat İnstitutu, Cihazqayırma bürosu, 183-cü Qvardiya zenit-raket alayı, "BARL" Elmi-İstehsalat Konserni, Baş Qərargah Baş İdarəsini əhatə edəcəyi bildirilib.

Məlumata görə, rəsmi Vaşinqton adı çəkilən qurumları İran, Suriya və Şimali Koreyaya qanadlı və ballistik raketlərin istehsalında dəstək göstərməkdə ittiham edərək bu addımı atıb.

Açıqlanan siyahıda Livanın "Hizbullah" qruplaşması, Suriya Hərbi Hava Qüvvələri, İran İnqilab Keşikçiləri Korpusu, aviasiya və müdafiə sahələrinə aid İran şirkətlərinin də adları var.

Sənəddə ABŞ-ın heç bir halda həmin qurumlarla əməkdaşlıq edə bilməyəcəyi açıq şəkildə göstərilib.

Bununla yanaşı, Ağ Ev sözçüsü Sara Sanders prezident Donald Trampın bəyan etdiyi kimi, gələn həftədən başlayaraq ölkəsinin İrana yeni və daha sərt sanksiyalar tətbiq edəcəyini açıqlayıb.

Qeyd edək ki, bir neçə gün öncə Konqres Donald Trampa milli təhlükəsizliyə təhdid yaradacaq şəxslərə sanksiya tətbiq edilməsi səlahiyyəti verilməsini təklif edib.

## TÜRKİYƏ XİN-i: İRAN ÜZƏRİNƏ GÖTÜRDÜYÜ ÖHDƏLİKLƏRİ İCRA EDİB



ABŞ-ın İranla nüvə sazişindən çıxmasına dair birtərəfli qərarı həyəcan doğurur. "APA"nın xəbərinə görə, bu barədə Türkiyənin Xarici İşlər Nazirliyinin bəyanatında bildirilir.

Məlumata görə, bəyanatda Türkiyənin İranla nüvə sövdələşməsinə nail olmaq üçün fəal səylər göstərdiyi qeyd olunub: "Beynəlxalq Atom Enerjisi Təşkilatının hesabatları İranın saziş üzrə üzərinə götürdüyü öhdəlikləri icra etdiyini təsdiqləyir. Bütün fikir ayrılıqları, Birgə Hərtərəfli Tədbirlər Planına uyğun olaraq, diplomatik yolla həll olunmalıdır. Onun icrası davam etdirilməlidir".

Qeyd edək ki, bir neçə gün öncə ABŞ prezidenti Donald Tramp ölkəsinin İranla bağlanmış nüvə sazişindən çıxdığını və İrana qarşı sanksiyaların bərpa olunacağını bəyan edib.

Xatırladaq ki, İranın nüvə proqramı üzrə Hərtərəfli Birgə Fəaliyyət Planı 2015-ci ilin iyul ayında İran və "altılıq ölkələri" - Almaniya, Böyük Britaniya, Fransa, Çin, Rusiya və ABŞ arasında qəbul edilib. İyulun 20-də plan BMT Təhlükəsizlik Şurası tərəfindən təsdiq edilib. Razılaşmaya əsasən, İran nüvə silahının əldə edilməsindən imtina edir, qarşılığında isə sanksiyalar tədricən ləğv edilir.

2017-ci ildə ABŞ prezidenti Donald Tramp İranla bağlı yeni strategiyanı elan edib. D.Tramp İranı terrorun maliyyələşdirilməsində ittiham edərək, rəsmi Tehranın nüvə razılaşmasının müddəalarını pozduğunu vurğulayıb. Tramp razılaşmanın pozulmasını istisna etməmişdi.

## GÜRCÜSTANDA ƏCNƏBİLƏRLƏ BAĞLI YENİ QAYDALAR



Gürcüstanda əcnəbilərə daimi yaşayış icazəsinin verilməsi qaydalarına dəyişikliklər ediləcək. "APA"nın məlumatına görə, bu barədə Gürcüstanın baş naziri Giorgi Kvirikaşvili hökumətin iclası zamanı bəyan edib.

Verilən xəbərə görə, baş nazir bildirib ki, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Gürcüstanın Ədliyyə Nazirliyi qanunvericiliyə dəyişikliklər layihəsi təqdim edəcək.

G.Kvirikaşvili deyib: "Yeni qaydalara əsasən, Gürcüstanda daimi yaşayış icazəsi almaq üçün xarici vətəndaş ölkədə son 10 il müddətində yaşamalıdır. Hazırda bu müddət 6 il təşkil edir. Müvəqqəti yaşayış üçün veriləcək icazənin müddəti isə 6 ildən 12 ilədək artırılacaq".

Eyni zamanda, G.Kvirikaşvili qeyd edib ki, əgər xarici ölkə vətəndaşının 6 ildən sonra Gürcüstanda daimi qalmaq üçün məqsədləri olmasa, həmin şəxsə yenidən daimi deyil, müvəqqəti yaşayış icazəsi veriləcək.

## VLADİMİR PUTİNİN DOLLARA QARŞI SƏRT TƏDBİRLƏR PLANI



Rusiya prezidenti Vladimir Putin ABŞ dolları hökmranlığına qarşı "müharibə" elan edib. Bu barədə "TRT" telekanalı məlumat yayıb. Məlumata görə, Vladimir Putin Rusiya Dövlət Dumasının plenar iclasında deputatlara müraciətində dolların qlobal ticarəti müəyyənləşdirməsini sərt tənqid edərək deyib: "Bundan xilas olmaq zəruridir. Dollarlarda inhisar bir çox ölkə üçün təhlükə yaradır. Dollardan asılılığı azaldaraq Rusiya iqtisadiyyatının suverenliyini qoruyub saxlamalıyıq".

Eyni zamanda, Rusiya prezidentinin sözlərinə görə, Dünya Ticarət Təşkilatı qaydaları tez-tez pozan ABŞ-ın sanksiya adı altında verdiyi siyasi qərarlarla üstünlük əldə etməyə çalışır.

Vladir Putinin fikrincə, ticarətin dollarla aparılması bir çox çətinliklər yaradır və bu səhv yoldan daşınmaq lazımdır.

Rusiya prezidenti deyib: "Tərəfdaşlarımız bütün bu qeyri-qanuni məhdudiyyətləri aradan qaldırmaq üçün beynəlxalq ticarət prinsiplərini pozaraq bizə kömək edir. Çünki bütün dünya ABŞ monopoliyasının etibarlı olmadığını, bir çox ölkə üçün təhlükə yaratdığını anlayır".

Məlumat üçün qeyd edək ki, Rusiya yanvar ayından başlayaraq maliyyə ehtiyatlarının yalnız 46 faizini ABŞ dolları olaraq saxlayır.

## AĞ EV: İSRAİLİN ÖZ SUVERENLİYİNİ MÜDAFİƏ ETMƏK HÜQUQU VAR



Ağ Ev mayın 10-na keçən gecə Suriya-İsrail sərhədində, Qolan yüksəkliklərində baş verən hadisələrə münasibət bildirib. "APA"nın xəbərinə görə, Ağ Evin sözçüsü Sara Sanders "Fox News" telekanalına müsahibəsində ABŞ-ın İsraili tam dəstəklədiyini bəyan edib.

"Bu hücum bir daha sübut edir ki, İrana etibar etmək olmaz. İsrailin öz suverenliyini müdafiə etmək üçün tam hüququ var. İsrailin özünümüdafiəyə yönələn hər bir addımını ardıcıl şəkildə dəstəkləyəcəyik", - deyə S.Sanders vurğulayıb.

Bundan əvvəl İsrail ordusunun mətbuat xidməti bəyan edib ki, Suriyada yerləşən İran qüvvələri Qolan yüksəkliklərində İsrailin mövqelərini raket atəşinə tutub. Buna cavab olaraq İsrail aviasiyası Suriya ərazisində bir sıra hərbi obyektləri bombalayıb.

Eyni zamanda, İsrail ordusunun mətbuat xidmətinin yaydığı açıqlamada bildirilir ki, İranın "Əl-Qüds" qüvvələri tərəfindən əraziyə 20-dək raket buraxılıb və raketlərin əksəriyyəti məhv edilib. İlkin məlumata əsasən, hadisə nəticəsində ölən və yaralanan olmayıb.

## DÜNYA BAZARINDA NEFTİN QİYMƏTİ 80 DOLLARA YAXINLAŞIR




Dünya bazarında neftin qiymətləri Yaxın Şərqdə böhranın artması nəticəsində bahalaşmaqda davam edir. "APA"nın məlumatına görə, İsraillə İran arasında gərginliyin artması, İsrail və Suriyanın biri-birini ağır silahlarla vurması, ABŞ-ın İranla imzalanan nüvə razılaşmasından çıxması və bu ölkəyə sanksiyaları genişləndirəcəyi ilə bağlı açıqlama qiymətlərin ciddi şəkildə artmasına səbəb olub.

Məlumata görə, xam neftin qiymətləri 2014-cü ildən indiyə kimi ən yüksək səviyyəyə qalxıb. Belə ki, "Brent" markalı neftin barreli bir dollardan artıq bahalaşaraq 77,75 dollardan təklif olunur. Qərbi Texas markalı neft də bir dollar dəyər qazanıb. Hazırda bu markadan olan neft 71,64 dollardan satılır.

Eyni zamanda, qiymətlərin bahalaşmasının digər səbəb isə ABŞ-da neft ehtiyatlarının azalmasıdır. Ehtiyatların bir milyon barrel artacağı gözlənilsə də, ötən həftə 2,2 milyon barrel azalma qeydə alınıb.

Bununla yanaşı, qeyd olunur ki, əgər Yaxın Şərqdə münaqişə yaxın vaxtlarda səngiməsə, qiymətlər bir müddət yüksələn xətlə inkişaf edəcək. ■

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Bakı Mühəndislik Universiteti**
**aşağıdakı boş olan vəzifələri tutmaq üçün**

## MÜSABİQƏ ELAN EDİR

**Fakültə dekanı vəzifəsini tutmaq üçün:**

**1.** Mühəndislik fakültəsi
**2.** Pedaqoji fakültə
**3.** İqtisadiyyat fakültəsi

**Kafedra müdiri və kafedralar üzrə boş olan vəzifələri tutmaq üçün:**

**Mexanika mühəndisliyi** - dosent, 2 yer; baş müəllim, 2 yer, müəllim, 1 yer
**Kimya mühəndisliyi** - dosent, 1 yer; baş müəllim, 2 yer; müəllim, 2 yer
**Sənaye mühəndisliyi** - kafedra müdiri; baş müəllim, 1 yer
**Dünya iqtisadiyyatı** - baş müəllim, 2 yer; müəllim, 2 yer
**Maliyyə** - dosent, 1 yer; baş müəllim, 2 yer; müəllim, 2 yer
**Dövlət və bələdiyyə idarəetməsi** - dosent, 1 yer; baş müəllim, 1 yer
**Mühasibat uçotu və audit** - baş müəllim, 2 yer; müəllim, 1 yer
**Fizika** - dosent, 1 yer; baş müəllim, 2 yer; müəllim, 2 yer
**Riyaziyyat** - baş müəllim, 2 yer; müəllim,1 yer
**Riyaziyyat və informatika** - baş müəllim, 2 yer
**Kimya** - dosent, 1 yer
**İngilis dili və ədəbiyyatı** - dosent, 1 yer
**Xarici dil** - dosent, 1 yer
**Biologiya** - baş müəllim, 2 yer; müəllim, 2 yer
**Ümumi fənlər** - kafedra müdiri; baş müəllim, 4 yer; müəllim, 1 yer

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin 09.03.2011-ci il tarixli 400 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması" və 401 saylı 07.08.1996-cı il tarixli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə uygun olaraq elan olundugu gündən 1 ay müddətində qəbul edilir.

Tədris Azərbaycan və ingilis dillərində aparılır.

**Əlavə məlumat üçün:**
**Ünvan:** *Xirdalan şəhəri, H.Əliyev küçəsi №120, AZ0101, Abşeron, Bakı, Azərbaycan*
**Tel.:** *+994(012)349-99-66/67+Daxili nömrə: (1113, 1115, 1117, 1155)*
**Fax:** *(+99412)-349-99-90/91*
**e-mail:** *info@beu.edu.az*
**web sayt:** *www/beu.edu.az*

**REKTORLUQ.**

## ELAN

30 iyun 2018-ci il tarixdə saat 11:00-da "Vulkan" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcək.

**Yığıncağın gündəliyində aşağıdakı məsələlər durur:**

**1.** Səhmdar cəmiyyətin idarəetmə orqanlarının 2017-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin yekunları barədə hesabatı və balansın təsdiqi.
**2.** Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**Ünvan:** *Bakı şəhəri, Qaradağ rayonu, Qızıldaş qəsəbəsi (Səhmdar cəmiyyətinin inzibati binası).*

**"Vulkan" ASC-nin idarə heyəti.**

## BİLDİRİŞ

## "Ağbulaq-88" ASC-nin səhmdarlarının nəzərinə

29 iyun 2018-ci il tarixində saat: 11:00-da "Ağbulaq-88" ASC-nin Səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

**İclasın gündəliyi:**

**1.** 2017-ci il maliyyə hesabatlarının müzakirəsi;
**2.** Cari məsələlər.

İclas Bakı şəhəri, Sabunçu rayonu, Balaxanı qəsəbəsi, 13-cü mədən ünvanında, 29 iyun 2018-ci il tarixində saat: 11:00-da keçiriləcəkdir.

İclasın gündəliyinə daxil edilmək üçün təkliflərinizi Sabunçu rayonu, Balaxanı qəsəbəsi, 13-cü mədən ünvanına təqdim edə bilərsiniz.

"Ağbulaq-88" ASC-nin səhmdarları Sizi 29 iyun 2018-ci il tarixində saat: 11:00-da Səhmdarların növbəti ümumi yığıncağına dəvət edirik.

**Şirvan şəhər Yaşıllaşdırma Təsərrüfat İdarəsi**

**KOTİROVKA SORĞUSU ELAN EDİR**

**1.** Xüsusi geyimlərin alınması.
**2.** Kənd təsərrüfatı alətlərinin alınması.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin tabeliyində "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsinin qərb hissəsində 20 ha ərazidə çoxmənzilli yaşayış kompleksinin tikintisi ilə əlaqədar Lot-2 - Sahədaxili və sahəxarici elektrik enerjisi təminatı və işıqlandırma, Lot-3 - Sahədaxili və sahəxarici su-kanalizasiya təminatı və Lot-4 - Sahədaxili və sahəxarici qaz təminatı üzrə "Respublika" qəzetinin 2018-ci il 31 mart və 17 aprel tarixli buraxılışlarında elan edilmiş açıq tenderin başlanması vaxtı uzadılaraq 2018-ci il 30 may saat 15:00-a təyin edilmişdir. Bununla bağlı tender təkliflərinin təqdim olunmasının son müddəti 2018-ci il 29 may saat 17:00-dır.

**Tender Komissiyası.**

**"Azərbaycan Sənaye Korporasiyası"**
**Beyləqan, Ağcabədi, Saatlı, Bərdə, Sabirabad və Biləsuvar Pambıq istehsalı və emalı məntəqələrində ümumilikdə 48 ədəd taya yerlərinin tikintisi işlərinin satınalınması məqsədilə**

## AÇIQ TENDER ELAN EDİR

**Tenderin predmeti:** "Azərbaycan Sənaye Korporasiyası" Beyləqan, Ağcabədi, Saatlı, Bərdə, Sabirabad və Biləsuvar Pambıq istehsalı və emalı məntəqələrində ümumilikdə 48 ədəd taya yerlərinin tikintisi işlərinin satın alınması barədə

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş hər bir lot üzrə əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 40C ünvanından əldə edə bilərlər (Əlaqələndirici şəxs: Fərhad Ələkbərov (tel: +99412 505-95-11).

Tenderdə iştirak haqqı: 100 (yüz) manat təşkil edir.

İştirak haqqı heç bir halda geri qaytarılmır. Tenderin Əsas Şərtlər Toplusunu almaq və tenderdə iştirakçı statusunu əldə etmək üçün "Azərbaycan Sənaye Korporasiyası" ASC-nin aşağıdakı manat hesabına 100 (yüz) manat məbləğində vəsait ödəmək tələb olunur:

*Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı"nın Mərkəz filialı*
*Swift Code: İBAZAZ2X*
*Bankın ünvanı: Bakı, Z.Tağıyev küçəsi,3.*
*Müxbir hesabı:AZ03NABZ01350100000000002944*
*Kod: 805722*
*Bank VÖEN:9900001881*
*Alan: Azərbaycan Sənaye Korporasiyası ASC*
*Alanın hesabı:AZ31İBAZ38060019446065857204*
*VÖEN: 1305305281*

Tenderdə müvafiq tikinti sahəsində geniş təcrübəyə, maddi texniki bazaya malik olan hüquqi şəxslər iştirak edə bilərlər.

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:
- tenderdə iştirak etmək üçün ərizə;
- iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflər açıldığı tarixdən əz azı 30 bank günü qüvvədə olmalıdır);
- iddiaçının tam adı, ünvanı, hüquqi statusunu təsdiq edən sənəd (surəti) və bank rekvizitləri;
- tender təklifinin dəyərinin 1%-i həcmində bank təminatı (zərflər açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);
- İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməmiş, vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;

Tender təklifinin bank təminatı tender təklifinin 1 (bir) %-dən az olmamalıdır.

İddiaçının tender təklifindəki qiymət malların qiymət dəyərindən başqa, nəqliyyat, ƏDV, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla göstərilməlidir.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri 27 iyun 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş və hər iki tərəfi imzalanmış ikiqat zərflərdə 05 iyul 2018-ci il saat 17:00-a qədər Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 40C ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtlardan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 06 iyul 2018-ci il saat 12:00-da Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 40C ünvanda açılacaqdır.

**Tender Komissiyası.**




**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti Həkim-Sanitar Xidməti Yol Gigiyena və Epidemiologiya mərkəzi cari təmiş işlərinin görülməsini təkliflər sorğusu üsulu ilə həyata keçirir.**

**Tender Komissiyası.**

## "Avro-Asiya İnşaat Korporasiyası "Evrascon" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə!

24 iyun 2018-ci il tarixdə saat 11:00-da "Avro-Asiya İnşaat Korporasiyası "Evrascon" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəliyə çıxarılan məsələlər:**

**1.** Cəmiyyətin 2017-ci il maliyyə təsərrüfat fəaliyyəti haqqında icra orqanının hesabatı.
**2.** Cəmiyyətin 2018-ci ilin nəticələrinə görə illik hesabatın, mühasibat balansının təsdiq edilməsi haqqında.
**3.** Dividenlərin hesablanması haqqında.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**Ünvan:** *AZ 1006, Bakı şəhəri Qurban Xəlilov, 8 (Nərimanov hekyəlinin arxası).*

**"Şəmkir Şampan Şərabları" ASC-nin 29.06.2018-ci il tarixdə saat 11:00-da Şəmkir rayonu Sarı təpə kəndində ümumi yığıncağı keçiriləcək. Gündəlik məsələ: illik hesabatın verilməsi.**

30 iyun 2018-ci il tarixində "Binəqədi Ağac Emalı" ASC-nin ümumi yığıncağı keçiriləcəkdir.

**Günədlik:**

**1.** Səhmdar cəmiyyətin 2017-ci ildəki fəaliyyəti haqqında.
**2.** Cari məsələlər.

Yığıncaq Bakı şəhəri, M.Ə.Rəsulzadə qəsəbəsi, Baksol-1 ünvanında, saat 15:00-da keçiriləcək.

Lənkəran rayon aqrar islahat komissiyasının 21 fevral 1998-ci il tarixli 3 nömrəli qərarı ilə Küvənil kənd sakini Rəsulova Hacıbəyim Səməd qızına verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 0084; KOD 80204058) itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının 24 may 2003-cü il tarixli qərarı ilə Siyəkü kənd sakini Heydərov Camal Fətəli oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 1273; KOD 80108018) itdiyi üçün etibarsız sayılır.

Şərifova Leyla Rauf qızının adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilən ÖM 109194 Çıxarış itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şəh., Nəsimi r-nu, Bülbül pr.-65 b, mənzil-26).

## ALLAH RƏHMƏT ELƏSİN

**Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli və İnstitutun kollektivi direktor müavini, filologiya elmləri doktoru Əlizadə Əsgərliyə, anası**
**GÜLÜSTAN xanımın**
**vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.**

**"Respublika" qəzetinin baş redaktoru professor Teymur Əhmədov və redaksiyanın əməkdaşları AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini, filologiya elmləri doktoru Əlizadə Əsgərliyə, anası**
**GÜLÜSTAN xanımın**
**vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.**

**Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəisi Fərhad Əmirbəyova, atası**
**FİKRƏT ƏMİRBƏYOVUN**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Baş redaktor**
**Teymur ƏHMƏDOV**

● **Redaksiyanın telefonları:**
İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**




● **Redaksiyanın ünvanı:**
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail:** resp@azdata.net
www.respublica-news.az
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023
Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi**
**İlham PƏNAHOV**

● **Çapa imzalanmışdır**
**11.05.2018**